QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 152 (4651) **21 avqust** 2014-cü il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# Sosial rifahın təminatı uğurlu gələcəyin sübutudur

*İlham Əliyev: "Azərbaycanda əsaslı iqtisadi islahatlar güclü sosial siyasətlə tamamlanır"*



Səh 2

5



**Arif Hacılı: "Başqan olmasam, partiyanı dağıdacam"**

3



**"Müxalifət bələdiyyə seçkilərində iştirak edə bilməyəcək"**

16



**"Arsenal" İstanbuldan əliboş döndü..**

# Sosial rifahın təminatı uğurlu gələcəyin sübutudur

## *İlham Əliyev: "Azərbaycanda əsaslı iqtisadi islahatlar güclü sosial siyasətlə tamamlanır"*



Davamlı inkişaf dövrünü yaşayan Azərbaycan Respublikasında əhalinin sosial rifah halının təmin olunması, bütün vətəndaşların gələcək sosial həyatının gücləndirilməsi Azərbaycan dövlətinin yürütdüyü iqtisadi siyasətin əsas trendidir. Bu məqsədlə son dövrlər sosial sektorda gücləndirilmiş tədbirlər, xüsusilə də, müəssisə və təşkilatlarda işləyənlərin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı təxirə salınmaz tədbirlər mühüm əhəmiyyət kəsb edir. 2014-cü ilin birinci yarımilində insanların yaşayış imkanlarının yaxşılaşmasına təkan verən sosial siyasətin həyata keçirilməsi ölkəmizin ümumi sosioiqtisadi imkanlarının artmasını şərtləndirir.

### Tarazlaşdırılmış iqtisadi-sosial siyasət

Azərbaycan hökuməti iqtisadi və sosial proqramları güclü koordinasiya olunmuş vahid strategiya əsasında icra edir ki, bu da, hər iki sahənin artımı fonunda ümumi inkişafa töhfə verir. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, iqtisadi və sosial inkişaf məsələlərini bir paketdə həll edirik: "**Azərbaycanda əsaslı iqtisadi islahatlar güclü sosial siyasətlə tamamlanır. Əgər belə olmasaydı, əhalinin gəlirləri artmazdı. Əsaslı iqtisadi islahatlar bir sıra hallarda insanlara çox baha başa gəlir. İnsanlar əziyyət çəkirlər. Biz indi müxtəlif yerlərdə iqtisadiyyatı dirçəltmək, iqtisadi böhrandan çıxmaq üçün daha çox əhali hesabına atılan addımları görürük. İş yerləri ixtisar edilir, maaşlar kəsilir, iş günü uzadılır, pensiya həddi uzadılır. Yəni bəzi hökumətlər öz iqtisadi vəziyyətini insanların hesabına sağlamlaşdırmaq istəyirlər. Bizdə isə iqtisadi islahatlar köklü xarakter daşıyırdı. Çünki biz planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid yoluna qədəm qoymuşduq. Bu islahatlar güclü sosial siyasətlə də tamamlanır, dəstəklənir. Belə olan halda təsadüfi deyil ki, hətta böhranlı illərdə Azərbaycan əhalisinin gəlirləri artmışdır**".

Həyata keçirilən praqmatik və nikbin proqnozlaşdırılmış və tarazlaşdırılmış iqtisadi-sosial siyasətin nəticəsidir ki, ölkə Prezidenti İlham Əliyevin ardıcıl olaraq əmək haqlarının və pensiyaların artırılması ilə bağlı imzaladığı sərəncamlar məhz vətəndaşların rifah halının yaxşılaşmasına imkan yaradıb. İnsanların aylıq gəlirləri, əmanətlərinin həcmi 10 faizdən çox, pul gəlirləri isə 7 faizdən çox artıb. İnflyasiya isə cəmi 2 faiz təşkil edib ki, bu da insanların real gəlirlərinin nominal dəyərinin istehlak bazarında 3,5 dəfə artımı deməkdir. Ölkədə orta əməkhaqqı 520 dollar səviyyəsində, orta pensiya 200 dollar təşkil edir ki, bu da Azərbaycanın MDB məkanında orta aylıq maaş və pensiyanın göstəricisinə görə 3-cü yeri tutduğunu göstərir. Ümumiyyətlə, cari ilin yarımillikdə iqtisadi artım və sosial dinamika, orta aylıq əməkhaqqının artımının müqabilində insanların sosial vəziyyətinin yaxşılaşmasına səbəb olub.

### Dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır

Ümumiyyətlə isə, 2003-cü ildən ötən 10 ildə Azərbaycanda bütün sahələrin yüksək inkişafı diqqət çəkir. Belə ki, ötən 10 ilin nəticələri də bir daha bunu göstərir. Ölkə Prezidenti İlham Əliyev bununla bağlı bildirmişdir ki, son on il ərzində Azərbaycan xalqı və dövləti sözün əsl mənasında sürətli inkişaf dövrünü yaşayıb: "**Bu 10 ildə problemlərin böyük hissəsi öz həllini tapmışdır. İstənilən istiqamət üzrə konkret proqramlar icra edilir. Onların bir çoxu artıq başa çatmışdır. Azərbaycanda proseslər müsbət istiqamətdə gedir. Daxili vəziyyət çox sabitdir. Xarici əlaqələrimiz genişlənir. Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınır**".

İqtisadi rəqəmlərin müqayisəli təhlili Azərbaycanın ötən 10 ildə hansı inkişaf trayektoriyasını əldə etdiyini daha aydın göstərir. Azərbaycanda 2012-ci ilin yekunlarına görə, əhalinin pul gəlirləri 13,8 faiz artıb. 2014-cü ilin birinci rübündə isə bu rəqəm 6 faiz olub. İnflyasiya ilə əhalinin pul gəlirləri arasında fərq 10 faizdən çoxdur. Bu, dünya miqyasında ən yüksək göstəricilərdən biridir. Hər nəfərə düşən gəlirlərin artımı istehlak qiymətlərinin həmin dövr ərzində bahalaşmasını 3,4 faiz bəndi üstələyib, başqa sözlə hər nəfərə düşən real gəlirlər 3,3 faiz artıb. Mübaliğəsiz demək olar ki, bazar iqtisadiyyatı ilə sosial müdafiənin uğurlu kombinasiyası qazanılan bir çox uğurların təməlini təşkil edən əsas amillərdəndir. Dövlətin sosialyönümlü siyasəti yalnız bazar münasibətlərinin və sahibkarlıq fəaliyyətinin azadlığını saxlamaqla vəsait və ehtiyatların düşüncəli surətdə yenidən bölüşdürülməsinə imkan verən yüksək iqtisadi inkişaf vasitəsilə həyata keçirilir.

### *Rəsmi xronika*

Azərbaycan Prezidenti İlham Əliyev Tovuz rayonunun Tovuz-Hunanlar-Qaraxanlı-Düz Cırdaxan avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd olunur ki, 32 min nəfər əhalinin yaşadığı 13 yaşayış məntəqəsini birləşdirən Tovuz-Hunanlar-Qaraxanlı-Düz Cırdaxan avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondundan Tovuz Rayon İcra Hakimiyyətinə ilkin olaraq 3 milyon manat ayrılsın. Maliyyə Nazirliyinə bu Sərəncamda nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etmək tapşırılıb.

Ümumiyyətlə, Prezident İlham Əliyev sosial siyasətlə iqtisadi siyasətin vəhdətini elə bir çevik tərzdə tənzimləyir ki, bu, həm zəngin dövlət, varlı vətəndaş prinsiplərinə gətirib çıxarmaqdadır. Çünki dövlət başçısı İlham Əliyev atdığı addımlar və verdiyi qərarlarla sübut etdi ki, Onun siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bu ölkədə görülən bütün işlər isə yalnız vətəndaşlarımızın və dövlətimizin ali mənafeyinə xidmət edir.

***RƏFİQƏ KAMALQIZI***

# Siyavuş Novruzov: "Müxalifət bələdiyyə seçkilərində iştirak edə bilməyəcək"

***- Siyavuş müəllim, bələdiyyə seçkilərinin keçirilməsinə getdikcə daha az vaxt qalır. Yeni Azərbaycan Partiyasının bələdiyyə seçkilərinə hazırlığı hansı mərhələdədir?***

- Bildiyiniz kimi, bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iyul ayında qəbul etdiyi qərarı var. Bundan sonra da rayon və şəhər təşkilat sədrlərinin, o cümlədən aparat rəhbərlərinin birgə toplantısını keçirərək bələdiyyə seçkilərinə hazırlığın növbəti mərhələsi ilə bağlı onların qarşısında konkret vəzifələr müəyyənləşdirilib. Bələdiyyə seçkiləri ilə əlaqədar həm bizim ümumi partiya proqramımız, həm də rayon və şəhər təşkilatlarının tədbirlər planı var. Həmin proqram və planların hər bir bəndinə uyğun olaraq, bu istiqamətdə fəaliyyət qurulur. Qısaca olaraq bu proqrama nələrin daxil olduğunu deyim. Birinci növbədə, keçmiş namizədlərlə bağlı tədqiqatlar və təhlillər aparılacaq. Biz bunu mütəmadi aparırdıq və indi də davam etdiririk. Yeni 5 il ərzində Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş namizədlərin fəaliyyəti qiymətləndiriləcək, onların insanlar tərəfindən, seçicilər tərəfindən necə qəbul olunması və onlardan kimlərin namizədliklərinin təkrar irəli sürülməsi müəyyənləşdiriləcək. İkinci məsələ isə rayonlarda 5 ildə yeni ictimai-siyasi vəziyyətə uyğun olaraq formalaşmış, hazırlıqlı, bacarıqlı, bundan önc əki prezident, parlament və bələdiyyə seçkilərdə təbliğat-təşviqat kampaniyasında aktiv iştirak etmiş gənclər və qadınlar arasından da namizədlərin seçilməsidir. Seçki dövründə fəaliyyət göstərəcək mərkəzi və yerli seçki qərargahlarında fəaliyyət göstərəcək partiya fəallarının siyahısı hazırlanacaq və mərkəzi qərargaha təqdim olunacaq.



Bundan əlavə, həm namizədlər, həm də müşahidəçilər və məşvərətçi səs hüquqlu üzvlər üçün təlimlərin keçirilməsi nəzərdə tutulur. Bu və ya digər istiqamətlərdə işlər davam etdirilir. Bilirsiniz ki, təxminən oktyabr ayında bələdiyyə seçkilərinə start veriləcək. Yəni bələdiyyə seçkilərinə start veriləinə qədər bizim bütün irəli sürüləcək namizədlərimiz, seçki qərargahlarımız, orada fəaliyyət göstərəcək insanlar tam hazır vəziyyətdə olacaqlar.

*SİA Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzovun trend-ə müsahibəsini təqdim edir.*

***- Müxalifət partiyalarının bələdiyyə seçkilərinə hazırlıqlarını necə dəyərləndirirsiniz?***

- Ümumiyyətlə, müxalifət düşərgəsində bir süstlük yaşanır və bu süstlüyün də səbəbləri ondan ibarətdir ki, ilk növbədə onlar bələdiyyə seçkilərində iştirak edə bilməyəcəklər və hər hansı bəhanələr axtarırlar ki, seçkilərdə iştirak etməsinlər. Çünki bələdiyyə seçkilərində 20 minə yaxın namizəd irəli sürülməlidir və namizəd irəli sürmək üçün müxalifətin sosial bazası, elektoratı yoxdur. Ona görə də bələdiyyə seçkiləri ilə bağlı müxtəlif fikirlər ortaya atırlar ki, guya bələdiyyə seçkilərinin statusu zəif olduğu üçün iştirak etmək istəmirlər. Əslində isə səbəb onların yerlərdə irəli sürə biləcək namizədlərinin olmamasıdır. Bu baxımdan da onlar funksiyalarını başqa-qaşqa istiqamətlərdə yönəltməyə çalışırlar ki, gündəmdə qalsınlar.

***- Bir sıra müxalifət partiyaları müxtəlif cinayətlər törətməkdə təqsirləndirilən bəzi QHT nümayəndələrinin hüquqlarını müdafiə etmək üçün müxtəlif qurumlar yaradırlar. Bu məsələyə münsibətizi bilmək istərdik.***

- Bəli, bir qrup müxalifət partiyaları özlərini guya ki, insan hüquqlarının müdafiəçisinə çeviriblər, bu və ya digər şəkildə cinayət törətmiş şəxslərin hüquqlarını müdafiə etmək üçün komitələr, qurumlar yaradırlar. Amma bütün bunlar sırf özlərini gündəmdə saxlamaq üçündür. Həmin adamlara bunların heç bir aidiyyəti yoxdur və xarici ölkələrdə həmin adamları maliyyələşdirən kəşfiyyat orqanlarının diqqətini cəlb etmək və onlardan vəsait qoparmağa çalışırlar.

***- Müsavat Partiyasının qurultay məsələsi getdikcə uzanır və mətbuatda yayılan məlumatlara görə, iki gün öncə partiyanın qurultaya hazırlıq üzrə təşkilat komitəsinin iclası zamanı başqanlığa potensial namizədlər arasında qalmaqal yaşanıb. Bu məsələləri nə cür dəyərləndirirsiniz?***

- Artıq 3 ildir ki, Müsavat Partiyasının qurultay qalmaqalı gündəmdədir. Hələ son prezident seçkiləri öncəsi də bu qalmaqal var idi. Gah deyilər ki, bizi yerlə təmin etmirlər, gah da bir şou düzəltdilər ki, qurultayı Gürcüstanda keçirmək istəyirlər, Türkiyədə keçirmək istəyirlər. Bu və ya digər şəkildə qurultayın keçirilməsini ləngidirlər. Bu da ondan irəli gəlir ki, burada problem başqan problemidir. Əgər orada düzgün seçki keçirilsə, İsa Qəmbər Müsavat Partiyasının başqanı seçilməyəcək. Bunu müsavatçılar qəbul etmirlər və görürlər ki, gündən-günə Müsavat Partiyası geri çəkilir, demək olar ki, kağız üzərində, qəzet üzərində olan bir partiyaya çevrilib. Bir neçə üzvü mətbuatda çıxış etməklə gündəmdə qalan bir partiyadır. Yəni bu partiyanın hər hansı bir fəaliyyəti yoxdur. Bu baxımdan da namizədlər arasında ciddi şəkildə qarşıdurma var. Bir qrup istəyir ki, özü seçilsin və Müsavatın tərkibində islahatlar aparsın, bir qrup isə istəyir ki, Müsavatı özünün gəlir mənbəyinə çevirməklə zavod kimi, müəssisə kimi və yaxud da bir firma kimi monopoliyaya götürərək özlərinin iqtisadi və siyasi maraqlarını təmin etsinlər. Bu qruplar arasında ciddi şəkildə mübarizə gedir.

# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Tovuzda vətəndaşları qəbul etdi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciət, ərizə və şikayətlərinin müsbət həll edilməsi üçün müvafiq tədbirlər görürlər. AzərTAc xəbər verir ki, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov avqustun 20-də Xidmətin Tovuz rayon şöbəsinin inzibati binasında Şəmkir, Gədəbəy, Tovuz, Qazax və Ağstafa rayonlarından olan vətəndaşları qəbul etdi.

Qəbulda Xidmətin müvafiq şöbə və bölmələrində işə və ya həqiqi hərbi xidmətə qəbulla bağlı müraciətlər üstünlük təşkil edirdi. Vətəndaşlar, həmçinin "Müharibə veteranı" adı və vəsiqəsinin verilməsi, hərbi xidmətə çağırılan övladlarının ailə vəziyyəti ilə əlaqədar olaraq yaşadıqları əraziyə yaxın olan hərbi hissələrdə xidmət keçmələri və digər məsələlərlə də bağlı müraciətlər etdilər. Xidmətin rəisi Arzu Rəhimov qəbulda iştirak edən vətəndaşları diqqətlə dinlədi, onları narahat edən məsələlərin həlli ilə bağlı müvafiq tapşırıqlar verdi. Qaldırılan məsələlərin bir çoxu yerindəcə həllini tapdı. Eyni zamanda, vətəndaşların Xidmətin fəaliyyət sahəsinə aid olmayan məsələlərlə bağlı, eləcə də şəxsi xarakterli müraciətləri müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alındı.

Qəbula gələn vətəndaşlar onlar üçün yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər.

# Azərbaycanla Əfqanıstan arasında sərhəd təhlükəsizliyi məsələləri müzakirə olunub



Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, general-polkovnik Elçin Quliyevin dəvəti ilə Əfqanıstan İslam Respublikası Daxili İşlər Nazirliyi Sərhəd Polisinin komandanı, general-leytenant Məhəmməd Şəfiq Fəzlinin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Sərhəd Mühafizəsinin 95-ci ildönümünə həsr olunmuş təntənəli mərasimdə iştirak etmək məqsədilə ölkəmizə səfər edib.

DSX-nin Mətbuat mərkəzindən Trend-ə verilən məlumata görə, Dövlət Sərhəd Xidmətinin Aparatında general-leytenant M.Ş.Fəzlinin təntənəli qarşılanma mərasimi keçirilib. Protokola uyğun olaraq, Əfqanıstan Sərhəd Polisinin komandanı "Şərəf dəftəri"nə ürək sözlərini yazıb.

E.Quliyev və M.Ş.Fəzlinin rəhbərlik etdikləri nümayəndə heyətləri arasında geniş tərkibdə görüş keçirilib. Görüşdə sərhəd təhlükəsizliyi məsələləri, dövlət sərhədlərinin mühafizəsinin təkmilləşdirilməsi tədbirləri, əldə olunmuş xidməti nailiyyətlər müzakirə olunub, qurumlar arasında əməkdaşlığın perspektivlərinə və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb. Müzakirələr zamanı Əfqanıstan Sərhəd Polisi əməkdaşlarının DSX Akademiyasında uzun müddətli akademik təlimlərdə, eləcə də müxtəlif ixtisas sahələri üzrə təkmilləşdirmə kurslarında iştirakı ilə bağlı ikitərəfli əlaqələrin genişləndirilməsinin vacibliyi vurğulanıb. Səfər çərçivəsində Əfqanıstan nümayəndə heyəti Bakı şəhərinin tarixi-mədəni yerləri ilə də tanış edilib. Səfər dostluq və qarşılıqlı anlaşma şəraitində keçib.

# Jurnalistin edamı və Barak Obamaya xəbərdarlıq

İraq Şam İslam Dövləti (İŞİD) ekstremist qruplaşması avqustun 19-da axşam "Amerikaya mesaj" (A Message To America) adlı videoyazı yayıb. Videoda 2012-ci il noyabrın 22-də Suriyann şimal-qərbində itkin düşmüş amerikalı jurnalist Ceyms Foulinin edam kadrları yer alıb. Habelə bir il əvvəl Liviyada yoxa çıxmış "Taym" jurnalının əməkdaşı Stiven Sotloffun görüntüləri əks olunub. "Obama, bu Amerika vətəndaşının həyatı sənin növbəti qərarından asılıdır", - İŞİD yaraqlıları ABŞ Prezidentinə belə bir mesaj ünvanlayıblar. AzərTAc xarici KİV-ə istinadla xəbər verir ki, hazırda ABŞ kəşfiyyat xidməti videonun həqiqi olub-olmadığını yoxlayır. Jurnalistin doğmaları isə hakimiyyət orqanlarının rəsmi bəyanatını gözləmədən onun ölüm faktını təsdiqləyiblər. "Biz Cimlə heç vaxt indi olduğu qədər fəxr etməmişik. O öz həyatını Suriya xalqının əzablarını dünyaya çatdırmaq naminə qurban verdi", - deyə jurnalistin anası vurğulayıb. O, terrorçulara qalan girovların həyatına toxunmamaları xahişi ilə müraciət edib. Prezident Barak Obamanın Ceyms Foulinin edamı ilə bağlı bu gün xüsusi bəyanatla çıxış edəcəyi gözlənilir. Bu haqda məlumat verən ABŞ Administrasiyasının nümayəndələri internetdə yerləşdirilən videoda çox böyük ehtimalla jurnalistin həqiqi edam səhnəsinin əks olunduğunu təsdiqləyiblər.

# Ölkəmizdə idman infrastrukturu gücləndirilir





**Azərbaycanda idman hərəkatı Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra dirçəlməyə başladı. Ölkəmizdə idmanın inkişafı, Azərbaycanın dünyada idman ölkəsi kimi tanınmasının əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyuldu. Müasir dövrdə bu siyasəti uğurla davam etdirən ölkə Prezidenti Cənab İlham Əliyevin davamlı və məqsədyönlü fəaliyyətinin nəticəsidir ki, Azərbaycan dünyada aparıcı idman ölkələrindən biri kimi tanınır. Azərbaycanda keçirilən dünya və Avropa çempionatları bir daha sübut edir ki, doğrudan da, Azərbaycanda idman uğurla, sürətlə inkişaf edir.**



Dünyanın idman arenasında artıq özünə layiqli yer tutan Azərbaycan beynəlxalq yarışlara ev sahibliyi edir.

Xüsusi olaraq vurğulayaq ki, Azərbaycanın mötəbər tədbirlərə ev sahibliyi etməsində iqtisadi nailiyyətlərimiz də əsas amillərdəndir. Son on il ərzində Azərbaycan dünyada ən sürətli templərlə inkişaf edən ölkəyə çevrilib. Ölkəmizdə və Bakı şəhərində müasir infrastruktur layihələri həyata keçirilir. Bakı dünyanın ən gözəl şəhərlərinin siyahısına daxil edilib. Şəhərimizdə müasir infrastruktur, xidmət obyektləri tikilir. Dünya standartlarına cavab verən beşulduzlu otellər istifadəyə edilib. Bakıda və bütövlükdə Azərbaycanda idman infrastrukturunun yaradılması istiqamətində böyük işlər görülüb. Bütün bunlarla yanaşı, beynəlxalq yarışlarda idmançılarımızın qələbəsi Azərbaycanı dünyada idman dövləti kimi tanıdan amillərdir.

## SON 10 İLDƏ AZƏRBAYCANDA 300-DƏN ÇOX BEYNƏLXALQ YARIŞ KEÇİRİLİB

Azərbaycanda keçirilən Avropa və dünya çempionatları silsilə xarakter daşıyır. Ümumilikdə son 10 ildə Azərbaycanda 300-dən çox beynəlxalq yarış keçirilib. Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda ən irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunur. Belə ki, on il ərzində ölkəmizdə yeniyetmə cüdoçuların Avropa çempionatı, bədii gimnastika üzrə 27-ci dünya çempionatı, sərbəst güləş və yunan-Roma güləşi üzrə 24-cü dünya çempionatı, görmə qüsurlu paralimpiyaçı cüdoçular arasında Avropa çempionatı, bədii gimnastika üzrə 25-ci Avropa çempionatı, qılıncoynatma üzrə gənclər və kadetlər arasında dünya çempionatı, gənclər arasında boks üzrə dünya çempionatı, boks üzrə dünya çempionatı və s. keçirilib. Bu yarışların Azərbaycanda keçirilməsi bir daha inkişaf etmiş bir dövlət olaraq, hər bir sahədə olduğu kimi, idmanda da ölkəmizə böyük imic qazandırıb.

Bu tədbirlərin, o cümlədən, bir çox idman növləri üzrə dünya və Avropa çempionatlarının Bakı şəhərində təşkilinin ənənəvi hal alması, ölkəmizdə yüksək səviyyədə yarışların keçirilməsi Olimpiya ailəsində böyük inam yaradıb. Əlbəttə, ilk növbədə, dövlət siyasəti bu istiqamətdə çox uğurla aparılır. Birinci Avropa Oyunlarının Bakıda keçirilməsi də elə bundan qaynaqlanır. Avropa Olimpiya Komitəsinin Baş Məclisində 2015-ci ildə Birinci Avropa Oyunlarının Azərbaycanda keçirilməsi haqqında qərar qəbul edilməsi, yuxarıda dediklərimizi əyani şəkildə təsdiq edir. İlk oyunların Bakıda keçirilməsi böyük nailiyyət sayılır. Azərbaycan növbəti dəfə ev sahibliyi edəcək yarışa yeni imzalar atacaq və dünyaya göstərəcək ki, müstəqil, dinamik inkişaf edən Azərbaycan hər şeyə qadir olan ölkədir. Bu Azərbaycanın dünyada təbliğ olunması baxımından da olduqca böyük əhəmiyyət kəsb edir.

Oyunların keçirilməsinə artıq bir il qalır. Azərbaycan beynəlxalq tədbirlərə ev sahibliyi etmək təcrübəsində yaralanaraq hər işin yüksək səviyyədə təşkilinə nail olacaq. Təbii ki, Azərbaycanda böyük potensial mövcuddur. Avropa Oyunlarına hazırlıq üçün Bakıda əzmkarlıqla çalışan güclü komanda fəaliyyət göstərir.

## BAKI OLİMPİYA STADİONU DÜNYANIN MÖHTƏŞƏM VƏ NADİR İDMAN QURĞULARINDAN BİRİ OLACAQ

Bəli, bu gün Bakıda təşkil olunacaq Birinci Avropa Oyunlarına hazırlıq işləri görülür. Bütün dünyanın nəzəri Azərbaycana yönəlib. Bakıda Su İdmanı Növləri Sarayı, Atıcılıq Mərkəzi və digər mükəmməl infrastruktur obyektlərinin inşası davam etdirilir. Milli Gimnastika Arenası artıq istifadəyə verilib. Ölkədə idman infrastrukturunun daha da gücləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin mühüm tərkib hissəsi olan Bakı Olimpiya Stadionunda da işlər sürətlə və yüksək keyfiyyətlə davam etdirilir.

Artıq 2011-ci ilin iyununda təməli qoyulan Bakı Olimpiya Stadionunun tikinti işləri başa çatmaq üzrədir və işlərin gələn ilin fevralında yekunlaşması nəzərdə tutulur. Paytaxtda müasir memarlıq üslubu, xüsusi gözəlliyi ilə seçiləcək, 69 minə yaxın tamaşaçı tutumuna malik Bakı Olimpiya Stadionunun bu tipli idman qurğuları sırasında özünəməxsus yeri olacaq. Beynəlxalq standartlara tam cavab verəcək stadionda müxtəlif funksiyalı tribunalar, qaçış zolağı və digər infrastruktur inşa ediləcək. Oyun meydançasına 4, tribunalara isə 26 qapıdan giriş olacaq. Olimpiya normativlərinə əsasən insanların stadiona daha çox piyada, ictimai nəqliyyatla gəlmələri nəzərdə tutulub ki, bunun üçün də 3103 yerlik avtomobil parkı inşa edilir. Stadionun ətrafında ümumilikdə 82 min kvadratmetr yaşıllıq sahəsi salınacaq. Orijinal layihə əsasında inşa edilən Bakı Olimpiya Stadionu dünyanın möhtəşəm və nadir idman qurğularından biri olacaq.



Bakıya gələn və Birinci Avropa Oyunlarının iştirakçısı olan hər kəs bu möhtəşəmliyi görəcək və bir daha aydın olacaq ki, Azərbaycan idman ölkəsidir, dünya arenasında yeri və rolu var.

*Nəzakət ƏLƏDDİNQIZI*

# "Naxçıvanda Bilik Fondu və Multikulturalizm Mərkəzi yaradılacaq"

Naxçıvanda Bilik Fondu və Multikulturalizm Mərkəzi yaradılacaq. Bu sözləri Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, akademik Kamal Abdullayev AzərTAc-a müsahibəsində söyləyib. Kamal Abdullayev deyib ki, dövlət başçısının 2014-cü il 7 və 15 may tarixli fərmanlarına əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb. Artıq Bilik Fondu formalaşma prosesini tamamlayıb, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması istiqamətində işlər davam etdirilir.



"Bizim müxtəlif ideoloji istiqamətlərdə gördüyümüz işlərin sırasında elələri var ki, onlar bu qurumlar vasitəsilə daha sistemli həyata keçiriləcək və azərbaycançılıq ideologiyasının təbliğində öz rolunu oynayacaq", -deyən Kamal Abdullayev qeyd edib ki, bu fəaliyyət həm də dövlətçiliyimizin möhkəmləndirilməsinə yönələcək, eyni zamanda milli, mədəni, tarixi, dini məsələlərdə faydalı nəticələrini verəcək. Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri bildirib ki, ölkəmizin bir çox regionlarında olduğu kimi, qədim Naxçıvan torpağında da yaradılacaq Bilik Fondu və Multikulturalizm Mərkəzi burada yerli ziyalıların, yeniyetmələrin, gənclərin iştirakı ilə milli-mənəvi dəyərlərimizin öyrənilməsi, təşviq edilməsi istiqamətində faydalı işlər görəcəkdir.

Bilik Fondunun bu il öz fəaliyyətinə Bilik günündə başlayacağını bildirən Kamal Abdullayev onu da əlavə edib ki, fəaliyyətlə bağlı artıq bir çox layihələr mövcuddur. Tədrislə, təhsillə, mədəniyyətlə bağlı tədbirlər bir sıra məktəblərdə il boyu həyata keçiriləcək. Bununla bizim gənclərimizin, yeniyetmələrimizin fəallığı artacaq, onların fəaliyyətləri daha mənalı olacaqdır.

# Mərasimlər milli-mənəvi və dini dəyərlərə uyğun olmalıdır



***Azərbaycanda dövlət-din münasibətləri başqa ölkələr üçün nümunə olacaq səviyyədə formalaşıb, respublikamız dünya ölkələri üçün tolerantlıq modeli olub. Bu gün mərasimlərimizin milli-mənəvi, mədəni və dini dəyərlərə uyğun keçirilməsi önəmli bir məsələdir.***

AzərTAc xəbər verir ki, bu fikirlər rayon ictimaiyyəti nümayəndələrinin, dini icma sədrlərinin, axund və imamların, dini ayinlərin icraçılarının, ərazi dairələri üzrə icra nümayəndələrinin iştirakı ilə İsmayıllı şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən toplantıda səsləndirilib. Qeyd edilib ki, ölkəmizdə bütün dinlərə mənsub insanların dini ayinləri icra etməsi üçün nümunəvi şərait yaradılıb. Məscidlər, kilsələr, sinaqoqlar bərpa edilir, yenidən tikilir. Vaxtilə öz məqsədindən kənarlaşdırılıb təsərrüfat, məişət, mədəniyyət obyektlərinə çevrilmiş Allah evləri yenidən inanclı insanların üzünə açılır.

Tədbirdə bildirilib ki, dini ayinlərin icrasındakı bəzi kiçik zahiri fərqlər mahiyyətə təsir etməməlidir. Biz müsəlmanıq, dinimiz İslam dinidir. Dini ayinlərin icrasında kimsə özünü başqasından daha inanclı, daha üstün, daha düzgün göstərmək cəhdində olmamalıdır. Mərasimlərimiz elə səviyyədə keçirilməlidir ki, burada bərabərlik pozulmasın, fərqlilik yaranmasın. Bir sıra çıxışlarda israfçılığın günah işlər sırasında olduğu vurğulanıb, buna həmişə riayət olunmasının zəruriliyindən danışılıb. Bildirilib ki, hər kəs, o cümlədən dini ayinlərin icraçıları çoxsaylı təamlar, meyvələr, çərəzlər, şirələrlə bəzədilmiş süfrələrin dünyasını dəyişənə əsla dəxili olmadığını əhaliyə izah etməlidir. Ehsanın yalnız yeməkdən ibarət olduğunu düşünmək məqbul hal sayıla bilməz. Körpü salmaq, yol və su çəkmək, bir imkansıza əl tutmaq, ehtiyaclı insanların yanında olmaq, dindaşına, soydaşına mərhəmət göstərmək, ev tikənə yardımçı olmaq ehsanın bəyənilən istiqamətlərindəndir. Toplantıda dönə-dönə vurğulanıb ki, din xadimləri, ağsaqqallar, icra və yerli özünüidarə orqanlarının nümayəndələri bu məsələlərin təbliğində birgə səy göstərməlidirlər. Mərasimlərimiz nəyinsə nümayişi məclisinə çevrilməməlidir. Hər kəs sosial mühitin saflaşmasında, gənclərin milli-mənəvi və dini dəyərlər əsasında tərbiyəsində daha fəal iştirak etməlidir.

# AMİP həbslərin siyasiləşdirilməsinə qarşıdır

"Azərbaycanda məhkəmələr kifayət qədər müstəqildir və hər bir şəxs siyasi fəaliyyət göstərməzdən də öncə bu ölkənin vətəndaşıdır". SİA-nın məlumatına görə, sözügedən fikirləri Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) sədri Yusif Bağırzadə ənənəvi düşərgədə Leyla və Arif Yunusların, eləcə də digərlərinin həbslərinin siyasiləşdirilməsi ilə bağlı yaradılan müdafiə komitələrinin fəaliyyətinə münasibətini bildirərkən deyib. AMİP sədrinin fikrincə, hər bir ölkə vətəndaşı ilk olaraq ölkə qanunvericiliyinə və konstitusiyasına tabe olmalıdır və törədilən hər hansı bir əmələ görə məhkəmənin qərarını gözləmək lazımdır: "Məhkəmə nə qərar verəcək. Məhkəmə qərarından sonra Apellyasiya Məhkəməsi, Ali Məhkəmə var. Burada da məsələ öz müsbət həllini tapmazsa Avropa Məhkəməsi var. Bu instansiyalar pillə-pillə keçilməlidir".



"Biz indidən bu həbsləri siyasiləşdirməyi düzgün saymırıq"-deyə qeyd edən Yusif Bağırzadə bu amili məhkəməyə təzyiq kimi qiymətləndirib: "Bu həbslərlə bağlı başlanan siyasi kampaniyalar məhkəməyə təzyiq kimi qiymətləndirilməlidir. Bu baxımdan, biz siyasi partiya olaraq belə tədbirlərə qatılmağı məqbul hesab etmirik".

# AŞPA-nın komitə iclasında Azərbaycanla bağlı hesabat dinləniləcək



Sentyabrın 3-də Parisdə Avropa Şurası Parlament Assambleyası (AŞPA) Monitorinq Komitəsinin iclası keçiriləcək. SİA bu barədə AŞPA-nın mətbuat xidmətinə istinadən xəbər verir. Xəbərə görə, iclasda Azərbaycan üzrə Jozef Debono Qrex və Pedro Aqramunt həmməruzəçi qismində iştirak edəcəklər. İclasda həmməruzəçilərin 19-21 may tarixlərində Bakıya faktaraşdırıcı səfərlərinin yekunları əsasında hazırlanan hesabat dinləniləcək.

# Arif Hacılı: "Başqan olmasam, partiyanı dağıdacam"



Saytımıza Müsavat Partiyasında baş verən qarşıdurma ilə bağlı ilginc məlumat daxil olub. Belə ki, avqustun 18-də Müsavatın qurultaya hazırlıq üzrə təşkilat komitəsinin iclası keçirilib və tədbirdə bir neçə tərəfin sözü üst-üstə düşməyib. Başqanlığa potensial namizədlər Arif Hacılı və Qubad İbadoğlu arasında yaşanan polemika sonradan əlbəyaxa davaya çevrilib. Arif Hacılı Qubad İbadoğlunu QHT sektorunda milyonlar qazanmaqda, lakin partiyaya heç bir xidmətinin keçməməsində ittiham edib.

Quvad İbadoğlu isə Arif Hacılıya "sənin hansı bankda nə qədər pulun, harada villan varsa, açıb tökərəm" cavabını verib. Məhz bundan sonra Hacılı anidən yerindən qalxaraq, İbadoğlunun üzərinə yürüyüb və yaxasından tutub. İclas iştirakçıları əlbəyaxa davanın qarşısını zorla alıblar.

Sonra Divan üzvü Tural Abbaslı başqan İsa Qəmbəri Hüseyn Məlikovu müşavirlikdən çıxartmaqla partiyaya xələl vurmaqda günahlandırıb. Başqan isə Tural Abbaslıya cavabında "bu mənim səlahiyyətimdir, sən münasibət bildirə bilməzsən, kim istəyirsə, partiyadan getsin" cavabını verib.

Digər maraqdoğurucu nüans isə Vurğun Əyyubun da Tural Abbaslı ilə eyni mövqedə dayanmasında olub. Vurğun Əyyub da Müsavat başqanını partiyanı dağıtmaqda ittiham edib: "Arif Hacılını sən müdafiə edirsən, əlini çəksən, o, məhv olacaq". İclasın sonunda Arif Hacılı yenidən iddialarını ortaya qoyaraq geriyə addım atmayacağını deyib. "Başqan olmasam, partiyanı dağıdacam" hədəsini edən Hacılı sonradan digər qrupların ona qarşı çıxmalarına səbəb olub. Xatırladaq ki, Müsavat Partiyasının qurultayı sentyabr ayına planlaşdırılıb və bir sıra ekspertlər gələn ay da partiyanın ali formunun keçirilməyəcəyi proqnozu irəli sürürlər.

# Ermənistanda qorxu kabusu

## *Naxçıvan görüşü Sarkisyanı təşvişə salıb*

***Məlum olduğu kimi, avqustun 19-da Naxçıvanda Əlahiddə Ümumqoşun Ordusunun Qərargahında Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov, Gürcüstanın müdafiə naziri İrakli Alasaniya və Türkiyənin milli müdafiə naziri İsmət Yılmaz arasında üçtərəfli formatda görüş keçirilib. Görüşdə nazirlər regionda cərəyan edən hərbi-siyasi vəziyyət və təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparıb və hərbi sahədə əməkdaşlıq üzrə bir sıra qarşılıqlı maraq doğuran məsələləri müzakirə ediblər. Üç dost-qonşu xalq arasında münasibətlərin və fəaliyyətlərin üçtərəfli formatda inkişaf etdirilməsinin səmərəliliyi vurğulanıb və danışıqların genişləndirilməsi və müdafiə nazirlərinin üçtərəfli görüşlərinin hər il növbə ilə Azərbaycanda, Gürcüstanda və Türkiyədə keçirilməsi, əməkdaşlığın gedişatının müzakirə edilməsi və gələcək perspektivlərin müəyyənləşdirilməsi barədə qərar qəbul edilib.***

Həmçinin, 3 ölkənin Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin artırılması və qarşılıqlı əməliyyat uyarlığının əldə edilməsi məqsədilə üçtərəfli birgə təlimlərin keçirilməsi, birgə seminar və konfransların təşkil edilməsi, hərbi təhsil və hərbi-texniki sahələrdə əməkdaşlığın üçtərəfli formatda təşkil edilməsi, neft və qaz boru kəmərlərinin mühafizəsi üzrə üçtərəfli təlimlərin keçirilməsi, əməkdaşlıq sahələrinin genişləndirilməsi üçün üç ölkə mütəxəssislərinin ekspert görüşlərinin təşkil edilməsi də məqsədəuyğun hesab olunub.



### Nazirlərin Naxçıvan görüşü erməniləri təşvişə salıb

Türkiyə, Azərbaycan və Gürcüstan müdafiə nazirlərinin Naxçıvanda avqustun 18-ə nəzərdə tutulmuş görüşü Ermənistan siyasi dairələrində ciddi narahatlıq doğurub. Axar.az xəbər verir ki, erməni mediası bu görüşə xüsusi diqqət ayırmaqdadır və üç ölkənin ortaq hərbi qərarlarından əndişələndiklərini gizlətmirlər. Görüşlə bağlı erməni politoloqları Ruben Melkonyan, Ruben Mehrabyan və Aşot Melkonyanın açıqlamaları da bunu deməyə əsas verir.

Ruben Melkonyan hesab edir ki, bu görüşün keçirilməsinin iki əsas hədəfi var : "Birincisi, Türkiyənin yeni seçilmiş prezidenti növbəti dəfə nümayiş etdirmək istəyir ki, onun ölkəsinin Cənubi Qafqaz siyasəti şaxələndirilmiş qalır, Ermənistanla düşmən siyasəti davam edir və bunun yerinə Gürcüstan və Azərbaycanla sıx əlaqələr qurulur. İkinci hədəf isə xüsusi təşviqatdır - hər üç ölkə əməkdaşlıq edir, Ermənistan isə burada iştirak etmir".

Ruben Melkonyanın fikrincə, görüşün Naxçıvanda keçirilməsi ciddi siqnaldır: "Göstərmək istəyirlər ki, Naxçıvan anti-erməni proseslərin cərəyan etdiyi vacib platforma ola bilər. Bu da faktdır ki, məhz Naxçıvanda dəfələrlə müxtəlif görüşlər keçirilib. Azərbaycan da bir daha buranın vacibliyini vurğulamaq istəyir".

Ermənistan Tarix İnstitutunun direktoru Aşot Melkonyan daha təskinedici açıqlama verib. O, qeyd edib ki, Gürcüstanda hakimiyyət dəyişikliyindən sonra bu ölkə Ermənistanla balanslaşdırılmış xarici siyasət aparır. Onun sözlərinə görə, bu görüşü nə ilsə əlaqələndirmək olmaz: "Bunu türklər və azərbaycanlılar etmək istəyər. Yadda saxlayın ki, Gürcüstan Dağlıq Qarabağda baş verən son proseslərə yüksək səviyyədə reaksiya verdi və narahatlığını bəyan etdi ki, əgər irimiqyaslı müharibə başlayarsa, bu, Gürcüstana təsir edəcək".

Politoloq Ruben Mehrabyan isə bu üç ölkənin hərbi müttəfiqliyinə doğru atılan addımı ümumi enerji kommunikasiyası ilə izah etməyə çalışıb: "Onların bu məsələ ilə bağlı daima müzakirəyə ehtiyacı olan gündəmi var. Bu məsələnin vacib tərəfidir, əsas problem isə təxribatdır: həm Türkiyə, həm Azərbaycan istəyirlər ki, onların səsi regionda, eləcə də region sərhədlərindən o tərəfdə eşidilsin. Siyasi, geopolitik, iqtisadi dividend qazanmaq üçün Gürcüstanın burada iştirakı məntiqlidir. Gürcüstan barəsində deyə bilərik ki, bu ölkənin maraqları müxtəlifdir və türk qonşuları ilə üst-üstə düşmür".

Politoloqların fikirlərində Gürcüstan barədə təsəlliverici sözlər işlətmələri təsadüfü deyil. Ermənistan bu üçlüyün Qafqazda siyasi gündəmi dəyişmək imkanında olmalarından narahatdır və Gürcüstanın milli maraqlarının ayrı olduğunu irəli sürməklə, daxili auditoriyaya köklənən açıqlama verirlər. Halbuki iqtisadi baxımdan Bakı-Tbilisi-Ankara birliyi həm də siyasi maraqlarda üst-üstə düşür. Çünki Gürcüstan iki subyektinə - Cənubi Osetiya və Abxaziyaya görə ərazi bütövlüyü pozulmuş durumdadır və təbii olaraq, Azərbaycanın ərazi bütövlüyünü birmənalı dəstəkləyən ölkələr sırasındadır, Türkiyə isə artıq onillərdir ki, qondarma erməni soyqırımı təhdidləri ilə üz-üzədir. Digər tərəfdən, Cavaxetiya ermənilərinin Gürcüstan ərazisinə iddiaları var və Dağlıq Qarabağ işğalının təsdiqlənməsi Gürcüstan ərazisini ermənilərin növbəti hədəfinə çevirəcək. Buna görə də Gürcüstanın Azərbaycan və Türkiyə ilə hərbi-siyasi əlaqələrində öz milli maraqlarından çıxış etdiyi və hər üç ölkənin bu məqamda maraqlarının üst-üstə düşdüyü şübhəsizdir.

### Ekspertlərimiz belə düşünürlər ki...

Məsələ ilə bağlı siyasətçilər, ekspertlər, millət vəkilllərimiz müdafiə nazirlərinin görüşünü ölkələr arasında əməkdaşlığın güclənməsində, sabitliyin təmin edilməsində uğurlu addımların atılacağına imkan yaradılacağının söylədilər.

### Aydın Mirzəzadə: "Üç ölkənin hərbi əməkdaşlığının güclənməsi və regionda sakitliyi təmin edən faktın meydana gəlməsində müsbət rolu olacaq"

Millət vəkili Aydın Mirzəzadə "Səs" qəzetinə verdiyi açıqlamasında adıçəkilən ölkələrin müdafiə nazirlərinin Naxçıvanda görüşünün əhəmiyyətindən danışarkən bildirib ki, bu görüş strateji inkişafın gücləndirilməsinə xidmət edəcək: "Azərbaycan, Türkiyə və Gürcüstanın müdafiə nazirlərinin görüşünün, məhz Naxçıvanda keçirilməsi həmin ərazinin qüdrətindən və muxtar respublikanın digər ölkələrlə əməkdaşlıq istəyindən irəli gəlir. Şübhəsiz ki, görüş 3 ölkənin bundan sonrakı əməkdaşlığının güclənməsi, eləcə də stabilliyin təmin edilməsi üçün birgə addımların atılması, ən əsas da strateji inkişafın gücləndirilməsinə xidmət edəcək".

O bildirib ki, nazirlərin görüşünün 3 ölkənin hərbi əməkdaşlığının güclənməsi və regionda sakitliyi təmin edən faktın meydana gəlməsində müsbət rolu olacaq: "Azərbaycan, Türkiyə və Gürcüstan artıq uzun müddətdir ki, bir çox sahələr üzrə əməkdaşlıq edirlər. Bu əməkdaşlıq onların strateji müttəfiqliyinin bir parçasıdır. Bu məsələdə ilk növbədə ölkələrin hərbi quruculuq sahəsində təcrübə mübadiləsinin aparılması, ölkələrin yaxınlaşması mühüm rol oynayır. Şübhəsiz ki, ərazi bütövlüyü Ermənistan tərəfindən pozulduğuna görə Azərbaycan güclü ordu qurmağı vacib hesab edir və digər ölkələrin təcrübəsindən yararlanmaq, eləcə də əməkdaşlıq etmək ölkəmiz üçün önəmlidir".

Ermənistanın bu görüşdən təşvişə düşməsinin əsas səbəbinin həmin ölkənin işğalçı xarakterindən irəli gəldiyini deyən A. Mirzəzadə, Ermənistanın Azərbaycan torpaqlarının bir hissəsini işğal etməklə yanaşı, Türkiyə və Gürcüstana qarşı da torpaq iddiası olduğunu əlavə edib: "Ermənilər uzun müddətdir ki, həmin ölkələrlə ciddi problemlər yaşayır. Bu səbəbdən də Ermənistanın digər ölkələrin əməkdaşlığına marağı ola bilməz. Cənubi Qafqaz kiçik bir ərazi olsa da, müxtəlif siyasət yürüdən ölkələrin toplaşdığı regiondur. Bu baxımdan maraqların bir araya gətirilməsi və stabilliyin təmin edilməsi əsas şərtdir. Ermənistanın qonşu dövlətlərə qarşı torpaq iddiası, beynəlxalq hüquq normalarını pozması regionda qeyri-stabillik yaradan əsas şərtdir".

### Musa Quliyev: "Azərbaycan-Türkiyə-Gürcüstan müdafiə nazirlərinin Naxçıvanda keçirilən görüşünün böyük əhəmiyyəti var"

Millət vəkili Musa Qasımlının sözlərinə görə, hər şeydən öncə Azərbaycan, Tükiyə və Gürcüstan strateji tərəfdaş ölkələr kimi hələ 1990-cı illərin sonu, 2000-ci illərin əvvəllərindən təhlükəsizlik sahəsində əməkdaşlıq edirlər: "2001-ci il 11 sentyabr terror hadisəsindən sonra bu üç ölkənin təhlükəsizlik sahəsində əməkdaşlığı genişlənib. Müdafiə sahəsində əməkdaşlıq üç ölkə arasında əməkdaşlığın mühüm sahələrindən biridir. Bu da onu göstərir ki, hər üç ölkə təhlükəsizliyə olan təhdidlərin qarşısını almaq istiqamətində əməkdaşlığa hazırdır. Cənubi Qafqazda təhlükəsizliyə olan başlıca təhdid Ermənistanın təcavüzkar siyasətindən gəlir. Fikrimcə, növbəti görüşlərdə bu əməkdaşlığın yeni sahələri inkişaf edərək oturuşacaq və təkcə tərəflərə deyil, regionada və Avropda təhlükəsizliyə xidmət edəcək."

### Zahid Oruc: "Bu görüşü Ermənistanın əleyhinə dəyərləndirərdim"

Millət vəkili Zahid Oruc bildirib ki, son dövrlər regionda gərginləşən şəraiti göz önünə almaq lazımdır: "Son itkilər, atışmaların intensivliyinin daha da genişlənməsi və İlham Əliyevin İkinci Qarabağ savaşının başlana biləcəyinə işarə etməsi də bunu sübuta yetirir. İkinci Qarabağ müharibəsi Ermənistan-Azərbaycan müharibəsi olmayacaq. Çünki Azərbaycan regionda nəhəng iqtisadi infrastruktur qurulan, transmilli layihələr həyata keçirən ölkədr. Gürcüstan, Azərbaycan, Türkiyə bu prosesə iqtisadi, sosial və siyasi səbəblərdən qatıla bilər. Naxçıvan bundan əvvəl də, Türk dövlət başçılarının görüşdüyü ünvana çevrilib. Bu görüşü Ermənistanın əleyhinə dəyərləndirərdim".

### Fərəc Quliyev: "Üçlük Cənubi Qafqazda müharibəyə son qoymaq üçün əsas rol oynayacaq"

Millət vəkili Fərəc Quliyev Naxçıvanda 3 ölkənin müdafiə nazirlərinin görüşməsini yüksək qiymətləndiribdir: "Görüş bir-birilərini müdafiə edən, eyni zamanda təhdidlərə qarşı birgə mübarizə aparan dövlətlərin əməkdaşlığının daha da güclənməsinə şərait yaradacaq. Hesab edirəm ki, bu üçlük Cənubi Qafqazda sabitlik yaratmaq və müharibəyə son qoymaq üçün əsas rol oynayacaqlar".

F.Quliyev Naxçıvanda Azərbaycan, Gürcüstan və Türkiyənin müdafiə nazirlərinin görüşünün əhəmiyyətindən danışarkən bildirib ki, Azərbaycansız Cənubi Qafqazın təhlükəsizliyi mümkün deyil və buna görə də digər dövlətlər ölkəmizin ağırlığını qiymətləndirir: "Məlumdur ki, Azərbaycan müharibə şəraitində yaşayır və ərazilərimiz ermənilər tərəfindən işğal olunub. Lakin edilən vəhşiliklərə baxmayaraq, biz ərazilərimizin geri qaytarılmasını dinc yolla həll etmək istəyirik. Təbii ki, ermənilər bundan narazıdır və bu məsələdə təhdidi üstün tuturlar. Ona görə də Azərbaycan güclənməkdə maraqlıdır".

**R.KAMALQIZI**

# Ermənilər yeni lider axtarır

## *"Ölkədə hakimiyyətə qarşı çox kəskin bir münasibət formalaşıb"*

***ABŞ-ın Ermənistandakı səfiri Con Xeffern prezidentlərin Soçi görüşünü tərəflər üçün münaqişənin sülh yolu ilə həllinə nail olmaq üçün ən yaxşı variant kimi dəyərləndirib. Onun sözlərinə görə, Azərbaycan, Ermənistan və Rusiya prezidentlərinin son üçtərəfli görüşü qoşunların təmas xəttində atəşkəsin pozulması hallarının azalmasına səbəb olub.***

C.Xeffern qeyd edib ki, Azərbaycan və Ermənistan prezidentlərinin keçirdikləri görüşlər bu problemin sülh yolu ilə həllinə nail olmaq üçün ən yaxşı üsuldur: "Məhz bu görüşdən sonra təmas xəttində baş verən atışmaların sayı azalıb."

### Ermənistan münaqişənin ölü nöqtədən tərpənməsinin qarşısını almağa çalışır

Politoloq Elşad Mirbəşiroğlu fikrincə, təmas xəttində gərginlik azalsa da, Ermənistan tərəfinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi başlanğıcdakı kimi dəyişməz olaraq qalır: "Hazırda Ermənistan tərəfi məlum siyasətini davam etdirməkdədir. Ümumiyyətlə, işğalçı ölkənin mövqeyinin mahiyyəti nədən ibarətdir? Birincisi, bu gün Ermənistan maraqlıdır ki, Dağlıq Qarabağ münaqişəsində status-kvo vəziyyəti saxlanılsın. Yəni bu günə qədər Ermənistan Dağlıq Qarabağ münaqişəsi ətrafında dəfələrlə aparılan danışıqlar prosesində qeyri-konstruktiv mövqe nümayiş etdirib. Bundan başqa bu ölkənin danışıqlar prosesi zamanı siyasi davranışları da qeyri-müəyyənliyi ilə insanın diqqətini cəlb edir. Bütün bunlar da onu deməyə əsas verir ki, Ermənistan bu münaqişə vəziyyətində hansısa xarici gücün maraqlarına uyğun olaraq Dağlıq Qarabağ münaqişəsinin ölü nöqtəsindən tərpənməsinin qarşısını almağa çalışıb".

### Ölkədə hakimiyyətə qarşı çox kəskin bir münasibət formalaşıb

Elşad Mirbəşiroğlu deyir ki, Ermənistan bu gərginliyin qalmasında maraqlıdır: "Bu da sərbəst siyasət yürütmək iqtidarında olmayan Ermənistanın hansısa kənar güclərin maraqlarına uyğun olaraq atdığı addımdır. Ermənistanın münaqişə vəziyyətində olması və region ölkələri ilə iqtisadi və siyasi əlaqələrinin həddindən artıq zəif olması bu ölkədə sosial-iqtisadi vəziyyəti olduqca acınacaqlı bir vəziyyətə salıb. Bu günləri Ermənistanın daxili həyatında hakimiyyətə qarşı çox kəskin bir münasibət formalaşıb".



### Dövlət qərarlarının qəbul edilməsi Rusiyaya həvalə edilib

Erməni şərhçi Naira Ayrumyan yazır ki, Ermənistanın siyasi elitası cəmiyyətin ehtiyaclarından və dövlətin real öhdəliklərindən çox uzaqlaşıblar: "Son zamanlarda dövlət qərarlarının qəbul edilməsi Rusiyaya həvalə edilib, az miqdarda kiçik yerli qərarlar isə oliqarxlar tərəfindən verilir".

Naira Ayrumyanın sözlərinə görə, erməni siyasətçiləri tətildən istifadə edərək fəal şəkildə rayonlara gedib sakinlərlə görüşürlər. Erməni şərhçi bunu Ermənistanda gözlənən hakimiyyət çevrilişinin əlaməti kimi dəyərləndirib. "Belə işlər adətən seçki zamanı edilir. Görünür, erməni siyasətçiləri yaxınlaşan dəyişikliyi hiss ediblər və əvvəlcədən buna hazırlaşmağa başlayıblar".

Hazırda Ermənistan rəhbərliyi əsasən Rusiyayönümlü qərarlar qəbul edir və Serj Sarkisyan başqa istiqamət tanımadığı üçün Moskvanın müti qulu kimi ölkəsini Avrasiya İttifaqına doğru aparmaqdan başqa yol tanımır. Rusiyaya qarşı ABŞ-ın sanksiyaları fonunda bu, bir sıra erməni siyasətçilər tərəfindən normal sayılmır. Artıq ABŞ öz ehtiyat fondundan bazara neft çıxarmağa başlayıb və bu, ilk dəfə olaraq neft fyuçerslərinin qiymətini barrel üçün 100 dollardan aşağı enməyə məcbur edib. Rusiya büdcəsində isə neftin qiyməti 102 dollar nəzərdə tutulub.

### Ermənilər yeni lider axtarır

ABŞ bu siyasətini davam etdirsə, Ukrayna ilə müharibə aparan Rusiya Sovet İttifaqının taleyini təkrarlayacaq. Nəticədə, eynən SSRİ kimi xaricdəki hərbi bazaları bağlamağa və daxili problemləri həll etməyə məcbur olacaq. O zaman Ermənistan havada qalacaq və vaxtında Qərbə üz tutmadığına görə, Avropa İttifaqının qapıları da üzünə bağlı olacaq.

Ermənilər, təbii ki, ölkəni çətin vəziyyətdən çıxaracaq, Aİ ilə Moskva arasında manevr edə biləcək bir lider istəyirlər. Hələ komsomol vaxtından Moskvanın zombisinə çevrilmiş Serj Sarkisyan bu cür manevr imkanlarına malik deyil. Ona görə də, ermənilər, təbii ki, yeni lider axtarışındadırlar. Bu lider, bəlkə də, artıq məlumdur. Sadəcə, 1999-cu il oktyabrın 27-də parlamentdə Karen Demirçyanın öldürülməsini nəzərə alaraq onun adını açıqlamırlar. Əks halda, eyni qüvvələr yeni lideri də aradan götürə bilərlər.

**GÜLYANƏ**

# Millət vəkili: "Sülh danışıqları nəticə verməsə..."

"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına əsasən həll edilməsi Azərbaycan dövlətinin qarşısında duran ən öncül strateji vəzifələrdən biri və birincisidir. Prezident İlham Əliyev tərəfindən dəfələrlə bəyan edilib ki, Azərbaycan istənilən şəraitdə özünün ərazi bütövlüyünü bərpa edəcək və təcavüzkar qüvvələr işğal olunmuş Azərbaycan ərazisindən çıxarılacaq". SİA-nın xəbərinə görə, bu fikirləri YAP Siyasi Şurasının üzvü, millət vəkili Məlahət İbrahimqızı deyib. Onun sözlərinə görə, məhz bu cür qətiyyətli və prinsipial mövqeyin fonunda Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli naminə bütün resurslarından səmərəli istifadə etməkdə və aktiv, hücumçu diplomatiya həyata keçirməkdədir: "Bunun da qanunauyğun nəticəsidir ki, son illərdə bütün beynəlxalq qurumlarda münaqişəyə münasibət getdikcə dəyişir, reallıq aydın olmağa başlayır. Azərbaycanın tutduğu prinsipial mövqeyin və sərgilədiyi praqmatik siyasətin fonunda dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatlar Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına əsasən həllinin zəruri və qaçılmaz bir proses olduğunu hər zaman bəyan edirlər. Məhz bunun nəticəsidir ki, beynəlxalq təşkilatlar tərəfindən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində həlli ilə bağlı zəruri qətnamələr qəbul edilib. Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan müharibə tərəfdarı deyil və məsələnin sonuna qədər diplomatik yollarla həllini tapmağa çalışacaq. Lakin təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, işğalçı Ermənistanın qeyri-konstruktiv mövqeyi bu yolu çox çətinləşdirir. Sülh danışıqları nəticə verməsə, Azərbaycan öz ərazilərini digər vasitələrlə işğaldan azad etmək gücündədir".





# DSMF sədri Ağsuda 5 rayonun sakinləri üçün qəbul keçirib

***Vətəndaşların qəbulu, onların müraciətlərinə həssaslıqla yanaşılması və haqlı tələblərinin təmin edilməsi Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə müvafiq olaraq, bütün dövlət təsisatlarının ən başlıca vəzifələrindən biri kimi müəyyənləşdirilib. Ayrı-ayrı bölgə sakinlərinin yerlərdə qəbul edilməsi, onların müraciətlərinə baxılaraq, dərhal konkret qərarların qəbul olunması ictimaiyyət tərəfindən böyük razılıq hissi ilə qarşılanır.***

Dövlət Sosial Müdafiə Fondunun (DSMF) sədri Elman Mehdiyev avqustun 20-də DSMF-nin Ağsu rayon şöbəsinin inzibati binasında Ağsu, Ağdaş, Kürdəmir, Şamaxı və Qobustan rayonlarının sakinləri olan məcburi dövlət sosial sığorta ödəyiciləri və pensiyaçılar üçün qəbul keçirib. Fondun İctimaiyyətlə əlaqələr sektorundan Trend-ə verilən məlumata görə, vətəndaşların rahatlığının təmin olunması məqsədilə DSMF-nin sspf.gov.az rəsmi internet saytında qəbula əvvəlcədən yazılmaq imkanı yaradılıb, müraciət üçün əlaqə nömrələri göstərilib, qəbulda iştirak edənlərin Fondun müvafiq rayon şöbələrinin inzibati binasının qarşısından xüsusi ayrılmış nəqliyyatla qəbulun keçirildiyi ünvana aparılıb- gətirilmələri təmin olunub.

Fondun məsul əməkdaşlarının, Ağsu, Ağdaş, Kürdəmir, Şamaxı və Qobustan rayon şöbə müdirlərinin iştirakı ilə keçirilən qəbulda ümumilikdə 40-dək vətəndaşın müraciətlərinə baxılıb. "Açıq qapı" şəraitində davam etdirilən görüşdə əvvəlcədən qəbula yazılanlardan əlavə olaraq gələn vətəndaşların da müraciətləri dinlənilib.

Müraciətlər əsasən sosial sığorta və pensiya təminatı, o cümlədən sosial sığorta stajının müəyyənləşdirilməsi, pensiyaların məbləğinin yenidən hesablanması, başqa dövlətlərin ərazisində qazanılmış iş müddətlərinin sığorta stajına daxil edilməsi, həmçinin əmək pensiyası növünün dəyişdirilməsi və digər məsələləri əhatə edib.

Müraciətlərin bir neçəsi isə məcburi dövlət sosial sığorta haqları ilə bağlı olub. Qəbul zamanı bütün müraciətlərə operativ şəkildə baxılıb və E.Mehdiyev qaldırılan məsələlərin həll olunması üçün müvafiq rayon şöbələrinin rəhbərlərinə, həmçinin Fondun digər vəzifəli şəxslərinə konkret tapşırıqlar verib. DSMF-nin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı vətəndaşlarla lazımi izahat işi aparılmaqla, aidiyyəti orqanlara müraciət edilməsi qərara alınıb. Qəbulda iştirak edən pensiyaçılar son illər əmək pensiyaçılarının sosial müdafiəsi istiqamətində mühüm qərarlar qəbul edildiyini və bütün bu tədbirlərə görə Prezident İlham Əliyevə minnətdar olduqlarını vurğulayıblar.



# ERMƏNİLƏR QARŞISINDA SƏMİMİ GÖRÜNƏNLƏR

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

Bir həqiqət var ki, dünyanın sivil ölkələrində, tərəqqi edən dövlətlərdə dövlətçilik maraqlarına, Vətən amilinə xəyanət edən kəslər, satqın və dönüklər istər iqtidarın, istərsə də sağlam müxalifətin kəskin qınağına tuş gəlirlər. Lakin o da bəllidir ki, bu cür satqınlara ağır cəzalar da verilir. Belə ki, satqınlıq damğasını daşıyanlar gələcəkdə də həmin addımlarını təkrarlaya biləcək qədər mənfur ünsürlərdəndirlər. Fəqət, hər yerə olduğu kimi, bizim ölkəmizdə də dövlətə, milli maraqlara və xalqa xəyanət edənlər var və onları müdafiə edənlər də həmin ünsürlərin ətrafındadır.

Ancaq budəfəki mövzu xəyanətkarlardan bəhs etsə də ortada digər vacib məqamlar mövcuddur. Məsələn, artıq məlum səbəblərə görə həbsdə olan Leyla və Arif Yunusların və digərlərinin həbsi ənənəvi müxalifət düşərgəsini nədənsə narahat etməyə başlayıb. Çünki belələrinin həbsi ilk növbədə satqın müxalifət "liderlərinin" növbəti satqınlıq ideyalarının reallaşmasının qarşısını alır. Görünür bu səbəbdən, AXCP, Müsavat və digər partiyalar haqlı olaraq həbsə atılan xəyanətkarları müdafiə edir, müdafiə komitələri yaradır, xarici təşkilatlar qarşısında əzabkeşlər imici formalaşdırmağa çalışırlar.

Məsələn, onlar xarici təşkilatlar qarşısında belə bir şüarlar səsləndirirlər ki, guya Leyla Yunus şəkər xəstəliyindən və böyrək çatışmazlığından əziyyət çəkir, ərciyəzi Arif Yunusun isə sən demə ürəyində xəstəlik var. Məhz bu kimi şivənçilik metodları ilə özlərinə xal toplamağa çalışan müxalifət partiyaları nəticədə həmin təşkilatlara "Azərbaycanda repressiya" olduğunu inandırmağa cəhd göstərirlər. Sən demə,Vətənin "mərd" oğul-qızlarının başında da Arif və Leyla Yunus cütlüyü dayanırmış (?!-R.).

Təəssüf ki, açıq-aşkar erməniyə işləyən bu mənfur cütlük xarici təşkilatlara belə tanıdılmalar arxasında qrantlar da əldə edilir. Sadəcə bir sual etmək lazımdır ki, əcəba, siz erməni kəşfiyyatına dövləti maraqları satan ünsürlər sayəsində aldığınız qrantları öz arvad-uşağınıza necə yedirdirsiniz?!

Məhz bu kimi ürəkbulandırıcı məsələlər ətrafında gah ABŞ hökuməti, gah "Amnesty İnternational" beynəlxalq hüquq-müdafiə təşkilatı, gah da Avropa qurumları və oralarda uzun illərdi ki, yer eləmiş erməni lobbiləri dövlətə xəyanətdə ittiham edilən ermənipərəst Leyla Yunus və Arif Yunusun həbsindən "bərk narahatdır" olduqlarını bəyan edir, üstəlik bir az da irəliyə gedərək, onların azadlığa buraxılmaları barədə bəyanatlar verirlər.

Demək belə çıxır ki, bu gün ABŞ-da irqçilik faktorunun cücərdiyi bir zamanda buna etiraz edənlər həbs oluna bilər, Qərb mətbuatında konkret senzuralar tətbiq edilir və buna etiraz edən jurnalistlər siyahıya alınaraq məxfi orqanların nəzarətinə götürülə bilər, amma Azərbaycanda milli dövlətçilik maraqlarını satanlar dərhal azad olunmalıdır?! Sizcə, bu, absurd fikir deyilmi, dəyərli oxucular?

Demək, belə çıxır ki, Azərbaycana dövlətə, iqtidara qarşı təhqir, böhtan yağdıran "Azadlıq" qəzetinin baş redaktoru Qənimət Zahid tutulmamalı, Tbilisidə erməni kəşfiyyatçısı İsparyanla əlaqə qurub Vətənə xəyanət edən Ruslan Bəşirli həbs edilməməliymiş.

Baxın, bu gün həbs olunanları daha kimlər müdafiə edir - ermənipərəst kinodramaturq Rüstəm İbrahimbəyov, "Milli Şura"nın sədri Cəmil Həsənli. Yəni Rüstəm İbrahimbəyov açıq-aşkar Bakının ermənilər üçün darıxdığını deyib və erməniləri Bakının siması adlandırıb. Yaxud da Cəmil Həsənli öz qızını erməni əsilli bir şəxsə verib, hazırda da erməni aşnalarının maraqlarını təmin etməklə məşğuldur. Məhz budur fakt, budur dəlil! İndi belələrinin Azərbaycanın adından, milli mənafedən dəm vurmaları, ümumiyyətlə, səmimi görünmür. Onlar yalnız ermənilər qarşısında səmimi görünə bilərlər.

# Azərbaycanda Ebola virusundan şübhələnərək "qaynar xətt"ə müraciət edənlər var

***Azərbaycanda Ebola virusu ilə bağlı Səhiyyə Nazirliyinin Taun Əleyhinə Stansiyasında "qaynar xətt" xidməti yaradılıb.***



Səhiyyə Nazirliyinin Respublika Taun Əleyhinə Stansiyasının direktor müavini Şair Qurbanov APA-ya açıqlamasında deyib ki, adi vaxtlarda "qaynar xətt" iş vaxtlarında fəaliyyət göstərib, amma tələbat olan vaxtlarda xidmətin iş vaxtı artırılır. Onun sözlərinə görə, dünəndən etibarən 530-32-13 nömrəli "qaynar xətt" 24 saat ərzində vətəndaşlara xidmət edəcək. Ş.Qurbanov qeyd edib ki, hər bir şəxs günün istənilən saatında hansısa narahatlıqla bağlı bu nömrəyə zəng vura bilərlər: "İnsanların bəzilərinin bu xəstəlik haqqında məlumatı yoxdur və bununla bağlı yetərincə suallar olur. Bütün bu və ya digər suallara, insanların müraciətlərinə "qaynar xətt" vasitəsilə ətraflı cavab veriləcək. Artıq dünəndən etibarən hərarətləri yüksək olan, Ebola virusundan şübhələnən və bundan narahatlıq keçirən 1-2 nəfər "qaynar xətt"ə müraciət edib. Onlara başa salınıb ki, yaxın 20-25 gün ərzində xaricdə olmayıblarsa, xaricdən kimsə onların yanına gəlməyibsə, kiminləsə kontaktda olmayıblarsa, heç bir narahatlığa əsas yoxdur".

Ş.Qurbanov bildirib ki, Rusiyada Afrika vətəndaşı vasitəsilə bu virusun aşkarlanması ilə bağlı yayılan xəbərlər narahatlığa səbəb olub. Onun sözlərinə görə, Rusiyanın bu virusun yayıldığı ölkələrlə böyük ticarət əlaqəsi var, turistlər gəlib-gedir: "Dünən Rusiya vətəndaşlarına həmin ölkələrə getməməyi məsləhət görüb. Amma yenə də buna baxmayaraq, turistlər gedirlər. Amma Azərbaycanın həmin ölkələrlə əlaqələri demək olar ki, yoxdur. Hər ehtimala qarşı həmin ölkələrdən gələn insanları sərhəd-keçid məntəqəsində qeydiyyata almaq lazımdır, onlar maksimal inkubasiya dövründə - təxminən 3 həftə nəzarətdə saxlanılmalıdır ki, bu müddət ərzində hansısa hal aşkar olunarsa, dərhal lazımi tədbirlər görülsün". Direktor müavini vurğulayıb ki, Azərbaycanda bu virusun yayılması mümkün deyil: "Çünki bu virus insanların gigiyena qaydalarına riayət etmədikləri üçün yayılır. O xəstəlik Azərbaycana gəlsə də, onun yayılma imkanı yoxdur. Çünki insanlar başa düşürlər ki, xəstə ilə təmasda olmaq olmaz. Hansısa ölkədən xəstə gəlsə də, bu xəstəliyin ölkədə yayılma ehtimalı yoxdur. Hər bir halda səhiyyə nazirinin müavininin əmrindən sonra da Ebola virusu xəstəliyinin ölkəyə keçməsinin qarşısının alınması məqsədilə profilaktik tədbirlər gücləndirilib".

# Elşən Məmmədəliyev ölkədə dəfn müavinətinin məbləğini açıqlayıb



Dövlət Sosial Müdafiə Fondu (DSMF) vətəndaşlar arasında müzakirə mövzusuna çevrilən sığortaolunanların və əmək pensiyaçılarının vəfatı ilə əlaqədar dəfn müavinətinin məbləği məsələsinə aydınlıq gətirib. SİA-nın xəbərinə görə, bununla bağlı DSMF aparatının Əmək pensiyaları şöbəsinin müdiri Elşən Məmmədəliyev bildirib ki, hazırda sığortaolunanların vəfatı ilə əlaqədar dəfn xərcinin məbləği 120 manat təşkil edir. Əmək pensiyaçısı vəfat etdikdə isə onun ailəsinə yaşa görə əmək pensiyasının baza hissəsinin üç misli məbləğində dəfn üçün müavinət verilir. Onun sözlərinə görə, hazırda yaşa görə əmək pensiyasının baza hissəsi 100 manat təşkil etdiyindən, 300 manat məbləğində dəfn üçün müavinət verilir: "Bəzən vətəndaşlar tərəfindən dəfn üçün müavinət vəfat edənin əmək pensiyasının tam məbləğinin üç misli başa düşülür. Bəzi hallarda əmək pensiyaçısının vəfatı barədə məlumat onun ailə üzvləri tərəfindən DSMF-nin yerli orqanına vaxtında verilmir və əmək pensiyaçısının plastik kartı vasitəsilə aylıq pensiyalar alınmaqda davam edir. Bu cür hallarda dəfn üçün müavinətin ödənilməsi üçün müraciət edildikdə artıq ödənilmiş pensiya məbləğinin tutularaq, DSMF-nin hesabına bərpası aparılır. Təəssüf ki, bu hal bəzən vətəndaşlar tərəfindən dəfn müavinətinin az məbləğdə verilməsi kimi başa düşülür. Halbuki burada dəfn müavinəti düzgün hesablanır və DSMF orqanı artıq ödənmiş məbləğin tutulmasına cavabdehdir. Buna görə də ümumi məbləğdən artıq alınmış həmin vəsait tutularaq köçürülür. Artıq alınmış pensiya məbləğinin qanunvericiliyə əsasən tutulması dəfn xərcinin azaldılması kimi şərh olunmamalıdır". Şöbə müdiri əlavə edib ki, bəzi hallarda vətəndaşlar dəfni kimin yerinə yetirməsi barədə sənəd təqdim olunmasına etiraz edirlər: "Praktika göstərir ki, dəfn müavinətinə bəzən bir neçə varis iddia edir. Müavinət isə yalnız dəfn edənə verilməlidir. Bu isə həmin şəxsin dəfni həyata keçirməsi barədə arayış alınmasını tələb edir".

# Dövlət Komitəsi: Bu il 685 uşaq valideyn himayəsindən məhrum olub

Son illər valideyn himayəsindən məhrum olmuş uşaqların sayında azalma müşahidə olunur. Bunu APA-ya açıqlamasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və Analitik Araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov deyib. Onun sözlərinə görə 2001-ci ildə valideyn himayəsindən məhrum olan uşaqların sayı 2484 nəfər, 2006-cı ildə 2441 nəfər, 2012-ci ildə 976 nəfər, 2013-cü ildə 757 nəfər olub: "Bu il isə bu rəqəm 685-dir. Göründüyü kimi, azalma müşahidə olunur. Ancaq azalma olsa da, biz bu sayın baş vermə səbəblərini araşdırırıq. Çünki bu cür uşaqların tərk edilmə səbəbləri müxtəlif olur. Bəziləri fiziki qüsurlu olduğu, bəziləri qeyr-rəsmi nikahdan doğulduğu, bəziləri isə valideynlərinin boşanmasından sonra tərk edilir".

E.Səfərov deyib ki, araşdırmalar nəticəsində məlum olub ki, bu kimi hallar daha çox qeyr-rəsmi nikahdan baş verir: "Hazırda buna görə qanun layihəsi hazırlanır. Həmçinin bununla bağlı 3-4 qanunda dəyişiklik olacağı planlaşdırılır. Çalışacağıq ki, uşağa qarşı məsuliyyətsizlik edən valideynlərə 20 manatdan 40 manatadək olan cəriməni artıraq".

Komitə rəsmisi əlavə edib ki, onlar regionlarda tək analarla əməkdaşlıq edirlər: "Belə ki, onların uşaqları üçün pulsuz uşaq bağçaları təşkil edirik. Həmçinin kasıb ailələri 200-300 manatlıq əmək haqqı civarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi vasitəsilə işlə təmin edirik. Gələcəkdə bununla bağlı nəzarəti daha da gücləndirməyi düşünürük".

# “Serj Sarkisyan təkcə fiziki deyil, həm də psixi xarabalığın kralıdır”

“Ermənistanı Ağdama çevirən Serj Sarkisyan təkcə fiziki deyil, həm də psixi xarabalığın kralıdır”. SİA-nın məlumatına görə, bunu Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu dünən keçirdiyi mətbuat konfransında deyib. “Ermənistan prezidenti S. Sarkisyan Ağdamı xaraba qoymasını Azərbaycana nümunə göstərdi. O, təkcə Azərbaycanın deyil, Rusiya, Türkiyə, Gürcüstan və hətta İranı da Ağdama çevirməyi arzulayır. Rəhbərlik etdiyi Ermənistanı isə hazırda Ağdama çevirməklə məşğuldur. İstənilən çiçəklənən diyarı xarabazara çevirməklə öyünməsi S. Sarkisyanın psixoloji vəziyyətindən qaynaqlanır. Yaşayış məskənlərinin çiçəklənməsindən deyil, xarabaya çevrilməsindən ləzzət almaq, yəqin ki, təbabətə çox az bəlli olan psixoloji xəstəlikdir. Əslində xarabalıq ilk növbədə S. Sarkisyanın beynindədir” - deyə, politoloq bildirib. M. Əhmədoğlu qeyd edib ki, Avropada sərbəst yerdəyişmə hüququndan danışan S. Sarkisyan 2 kəlbəcərlini Kəlbəcərə getdiyi üçün girov götürdü. Mərkəz direktorunun sözlərinə görə, Rusiya prezidentinin Dağlıq Qarabağ münaqişəsində xüsusi rolunu inkar edən S. Sarkisyan münaqişənin ATƏT-in Minsk Qrupu vasitəsilə həllini prioritet hesab edir: “2 ay bundan öncə isə S. Sarkisyan ATƏT MQ həmsədrlərini normal sənəd hazırlaya bilməməkdə ittiham etmişdi: “ATƏT MQ-nin sənədləri Azərbaycan və Ermənistanda fərqli qavranılır. Münaqişənin tənzimlənməməsinin də əsas səbəbi budur”.



M. Əhmədoğlu vurğulayıb ki, Sarkisyan Soçi görüşünü 2011-ci ildəki Kazan görüşünün davamı hesab edir: “Bu dərəcədə ziddiyyətli və məntiqsiz fikir söyləyən şəxs hədsiz dərəcədə savadsızdır. Əvvəla, Kazan görüşündən sonra Ermənistan tərəfi Azərbaycanın irəli sürdüyü 10 şərtdən imtina etməyənədək prezidentlərin növbəti görüşünün baş tutmayacağını bildirmişdi. Ermənistan prezidenti Vyanada Azərbaycan Prezidenti ilə görüşə getməli oldu. İkincisi, uzunmüddətli fasilədən sonra Vyana görüşünün Kazan görüşünün davamı olmadığı halda, Soçi görüşü heç bir şərt daxilində Kazan görüşünün davamı ola bilməz. Üçüncüsü, Kazan görüşünün mahiyyəti vasitəçilər tərəfindən rədd edilib: tənzimlənmə stolunun üstündəki sənəd 2009-cu ildən etibarən həmsədr ölkə prezidentlərinin qəbul etdikləri Yenilənmiş Madrid Prinsipləridir. Kazan görüşünün mahiyyəti isə 2009-cu il sənədi ilə 2009-cu ilədək olan sənədləri ortaq məxrəcə gətirmək idi”. Politoloqun sözlərinə görə, S. Sarkisyanın Soçi görüşü ilə bağlı daha bir ziddiyyəti ermənilərin daxili vəziyyəti ilə bağlıdır: “Bütün Ermənistan ictimaiyyəti, o cümlədən Dağlıq Qarabağın de-fakto rəhbərləri Yenilənmiş Madrid Prinsiplərini rədd etdikləri halda S.Sarkisyan münaqişəni ATƏT MQ-nin Madrid prinsipləri əsasında tənzimləmək istəyir. Bu isə S.Sarkisyanla Dağlıq Qarabağ arasında ziddiyyətin göstəricisidir. Əslində Dağlıq Qarabağla S.Sarkisyan arasında heç bir ziddiyyət yoxdur. Ziddiyyət S. Sarkisyanın beynindədir”. Politoloq deyib ki, Ermənistan telekanalında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı təhqir edən S. Sarkisyan cəmi 1 gün keçmiş Ərdoğana diframblarla dolu təbrik məktubu göndərir: “Təbrik etməsində qüsur yoxdur. Diqqətçəkən 1 sutka ərzində Sarkisyanın Ərdoğan barədə daban-dabana zidd münasibətlər nümayiş etdirməsidir. S.Sarkisyanın beyni çoxdan xaraba ideyaların yuvasına çevrilib. Məhz bu səbəbdən də ölkəsinin ərazisində 3 nüvə müəssisəsi olan Sarkisyan Azərbaycanı Mingəçevir gölü ilə və ya “Skad” raketləri ilə hədələyir. Sarkisyan hələ bu vaxta qədər malik olduğu işlək “Skad” raketlərinin sayını bilmir. Ümumi sayını isə xeyli şişirdir”.

## 8 ildə əmək pensiyalarının minimum məbləği 4 dəfə artıb

“Azərbaycanda yeni sığorta-pensiya sisteminin fəaliyyət göstərdiyi 2006-cı ildən hazıradək Prezident İlham Əliyev tərəfindən əmək pensiyalarının baza hissəsinin artırılması ilə bağlı 8 sərəncam verilib. Həmçinin, bu müddət ərzində sığorta hissəsinin indeksləşdirilməsi ilə bağlı 8 sərəncam imzalanıb. Bununla yanaşı, əvvəlki sistemlə əhatə olunmuş şəxslərin yeni şəraitə inteqrasiyasının tamamlanması üçün ardıcıl qərarlar qəbul edilib”. SİA-nın xəbərinə görə, bu barədə Dövlət Sosial Müdafiə Fondu aparatının Əmək pensiyaları şöbəsinin müdiri Elşən Məmmədəliyev məlumat verib. Onun sözlərinə görə, qısa müddət ərzində çox ciddi sosial-iqtisadi islahatların aparılmasının məntiqi nəticəsi kimi yaşa görə əmək pensiyasının baza hissəsinin 2006-cı il aprelin 1-dən 30 manat, oktyabrın 1-dən 35 manat, 2007-ci il yanvarın 1-dən 40 manat, fevralın 1-dən 50 manat, 2008-ci il yanvarın 1-dən 60 manat, sentyabrın 1-dən 75 manat, 2010-cu ilin sentyabrın 1-dən 85 manat, 2013-cü ilin sentyabrın 1-dən 100 manat məbləğində müəyyən edilməsi ilə bütün əmək pensiyaçılarının pensiyalarına eyni vaxtda artımlar tətbiq olunub. Bununla yanaşı, dövlət başçısının əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi barədə sərəncamlarına əsasən, müvafiq şəxslərin əmək pensiyalarının sığorta hissəsinə ölkədə baş vermiş inflyasiyaya uyğun olaraq 2007-ci ilin yanvarın 1-dən 8,3 faizlik, 2008-ci ilin yanvarın 1-dən 16,7 faizlik, 2009-cu ilin yanvarın 1-dən 20,8 faizlik, 2010-cu il yanvarın 1-dən 1,5 faizlik, 2011-ci il yanvarın 1-dən 5,7 faizlik, 2012-ci il yanvarın 1-dən 7,9 faizlik, 2013-cü il yanvarın 1-dən 1,1 faizlik, 2014-cü il yanvarın 1-dən 2,4 faizlik artım tətbiq edilib. E. Məmmədəliyev qeyd edib ki, pensiyaların orta aylıq məbləği hər il yüksələn dinamika ilə artıb. Belə ki, ölkə üzrə pensiyaların orta aylıq məbləği 1 yanvar 2006-cı il tarixə 29,8 manat olduğu halda, 1 yanvar 2007-ci il tarixə 41,1 manat, 1 yanvar 2008-ci il tarixə 62,9 manat, 1 yanvar 2009-cu il tarixə 95,8 manat, 1 yanvar 2010-cu il tarixə 100,4 manat, 1 yanvar 2011-ci il tarixə 112,9 manat, 1 yanvar 2012-ci il tarixə 145,1 manat, 1 yanvar 2013-cü il tarixə 152,0 manat təşkil edib, hazırda isə 172,2 manata çatıb. Nəticədə yeni sistem fəaliyyətə başladığı dövrdən hazıradək əmək pensiyalarının minimum məbləği 4 dəfə, orta aylıq məbləği isə 5,8 dəfə artıb. Həyata keçirilən davamlı sosial müdafiə tədbirləri nəticəsində pensiyaların orta aylıq məbləği pensiyaçılar üçün yoxsulluq həddini 1,7% üstələyir, halbuki 2003-cü ildə bu göstərici yoxsulluq həddindən 2 dəfə aşağı məbləğlə ifadə olunurdu.



## Ukrayna qoşunları Donetsk vilayətinin İlovaysk şəhərini nəzarətə götürüblər

Ukrayna qoşunları Donetsk vilayətinin İlovaysk şəhərini nəzarətə götürüblər. APA-nın verdiyi məlumata görə, bu barədə Ukrayna Milli Qvardiyasının saytında xəbər verilir. Bununla yanaşı, qeyd olunur ki, şəhərdə hələ də tank və artilleriyadan atəş açan separatçı birləşmələr qalmaqdadır. Separatçıların vaxtaşırı əks-hücuma keçdiyi bildirilir. Hökumət qoşunları artıq üç əks-hücum cəhdinin qarşısını alıb. Ərazidə döyüş aparan “Donbas”, “Dnepr” və “Şaxtyorsk” batalyonlarına “Azov” batalyonundan da dəstəyin gəldiyi əlavə edilir. Separatçılar isə hökumət qüvvələrinin şəhərin yalnız bir kvartalına nəzarəti ələ keçirdiyini bəyan ediblər.



## Bunlar ağıllanana oxşamırlar...

RƏFİQƏ

Bu gün ölkəmizin əldə etdiyi nailiyyətlər, qazandığı uğurlar, beynəlxalq hüquq müstəvisində istənilən məsələ üzrə milli maraqlarını qətiyyətlə müdafiə etməsi və bunun üçün lazımi gücün, qüdrətin sahibi olmasını həzm edə bilməyənlərin sayı az deyil. Bu, ilk növbədə, artıq neçə illərdir Azərbaycan əleyhinə fəaliyyət göstərən antiazərbaycançı şəbəkəyə, bu şəbəkənin əsas nümayəndələrindən olan Ermənistana və bəzi dövlətlərə aiddir. O da məlum həqiqətdir ki, sözügedən şəbəkənin sıraları genişdir və Azərbaycanın daxilində də təmsilçiləri, əlaltıları mövcuddur. Hüquq müdafiəçisi, qeyri-hökumət təşkilatı, siyasi partiya adı altında fəaliyyət göstərən belə buyruq qulları əməlləri ilə istənilən an Azərbaycana, xalqa xəyanət etməyə hazır olduqlarını dəfələrlə sübuta yetiriblər. Onlar öz mənafeləri, maddi maraqları naminə lazım gəldikdə bir an belə, tərəddüd etmədən xəyanətlərə yol veriblər.

Niyyət və əməli daha çox Azərbaycanda daxili sabitliyi pozmağa yönələn, fəaliyyəti ilə hər zaman ölkəmizin nüfuzunu zədələməyə çalışan ifrat radikal müxalifət, əslində, antiazərbaycançı şəbəkənin bir təmsilçisi kimi çıxış etdiyini istər-istəməz faş etməkdədir. Çünki cəmiyyətdən özünü təcrid halına salmış radikallar ölkəmizin rifah halının yaxşılaşmasını istəməyənlər kimi Azərbaycanda xaotik bir durumun formalaşmasını arzulayır, bu yöndə addımlar atmağa cəhd göstərirlər. Buna nail olmasalar da, iyrənc əməlləri ilə, əslində, Azərbaycanın ən qatı əleyhdarları ilə bir sırada yer aldıqlarını göstərmiş olurlar. Beləliklə, qeyd edilənlərdən aydın görünür ki, əslində, radikal müxalifət və beynəlxalq miqyasda Azərbaycan əleyhinə fəaliyyət göstərənlər əməlləri ilə bir-birinə bağlıdırlar. Bu mənada radikal müxalifətin antiazərbaycançı şəbəkədən gələn göstərişlər əsasında fəaliyyətini qurması, müəyyən maliyyə vəsaiti alması barədə indiyə qədər səslənən fikirlərin heç də reallıqdan uzaq olmadığı daha aydın görünər.

Çox da uzaq olmayan yaxın keçmişə nəzər saldıqda radikal müxalifət təmsilçilərinin öz mənafeləri naminə Azərbaycan xalqının faciələrlə üzləşməsinə hazır olmalarına dair konkret misallar çəkmək mümkündür. Ayaz Mütəllibovun hakimiyyətdən devrilməsi üçün AXC və Müsavatın Azərbaycan ərazilərini hərraca qoyması, ermənilər tərəfindən işğal olunmasına şərait yaratmaları da bunun faktiki sübutu kimi çıxış edir. Bu, həmin müxalifətdir ki, 20 Yanvar faciəsi və Xocalı soyqırımı kimi qanlı hadisələrdən istifadə edərək silah gücünə hakimiyyətə yiyələnmək istiqamətində addımlar atmaqdan çəkinmədir. İndi görünən odur ki, radikal müxalifət yenidən Azərbaycanda növbəti faciələrin yaşanmasını, ölkəni ötən əsrin 90-cı illərinin anarxiya və xaos dövrünə sürüklənməsini istəyir. Bunun üçün qeyd edildiyi kimi, Azərbaycan əleyhinə çıxan ən müxtəlif xarici qüvvələrlə böyük məmnuniyyətlə işbirliyinə gedir. Məqsəd Azərbaycanda qarşıdurma yaranmasına, qardaş qanı tökülməsinə nail olmaqla hakimiyyətə gəlmək, həmçinin qulluqlarında durduğu xarici ağalarından ölkədə anarxiya yaradacaqlarına dair vədlər verib daha çox miqdarda pul qoparmaqdır. Bütün bunlar həm də onu göstərir ki, Azərbaycanda əhalinin, ayrı-ayrı təbəqələrin narahatlığına və narazılığına, kütləvi aksiyalara səbəb ola biləcək hal yoxdur.

Sosial dayaqlarını itirmiş radikal müxalifət başçıları və onların azsaylı tərəfdarları Azərbaycanda sabitliyin pozulmasına çalışır, bu istiqamətlə müxtəlif cəhdlər edirlər. Belə cəhdlərdən biri kimi radikal müxalifət yenidən özünün köhnə, lakin heç bir effekt verməyən “siyasi məhbus” taktikasını işə salmağa çalışır. Bu da növbəti dəfə göstərir ki, müxalifətin radikal qanadının əməllərində, təfəkküründə hələ də dəyişiklik baş verməyib. Elə bu səbəbdəndir ki, formal mövcudluqlarını çoxdan xaricdəki bəzi bədxah qüvvələrin qəpik-quruşlarından asılı etmiş radikal müxalifət təmsilçiləri antiazərbaycançı mənafelərindən əl çəkmək istəmirlər. Xalqın nifrətinə tuş gəldikləri üçün isə bütün ümidlərini xaricdə olan, müstəqil Azərbaycanın varlığına qarşı çıxan qüvvələrə bağlayıblar. Təbii ki, Azərbaycanın hüquq-mühafizə orqanları, ölkəmizdə xaos yaratmaq istəyən bu qüvvələrin qarşısını almalıdır və alır da. Sağlam cəmiyyəti belə yoluxucu ünsürlərdən qoruyur. Sabah da belə olacaq. Ölkəmizin milli maraqlarını satanlar, xaricdəki ağaları ilə işbirliyi quranlar cəzalandırılacaq. O vaxta qədər ki, onlar ağıllansınlar. Hərgah buna çox da oxşamırlar...





# Şəhidlərimizin qəhrəmanlığını Vətən heç vaxt unutmayacaq

***YAP İsmayıllı rayon təşkilatı gənclər birliyinin, rayon gənclər və idman idarəsinin təşkilatçılığı ilə aksiya keçirilib.***

Tədbirdə çıxış edən YAP İsmayıllı rayon təşkilatının sədri Əzizə Vahabova bildirib ki, Vətən uğrunda, onun azadlıq və istiqlaliyyəti yolunda canını qurban verən, xalqın rifahı və xoşbəxtliyi naminə şəhid olan qəhrəmanlar heç vaxt unudulmur, öz ölümləri ilə ölümsüzlüyə qovuşurlar:"Torpaq onun uğrunda tökülən qanla müqəddəsləşir, Vətən olur. Qanı torpağa tökülən igidlər isə ən uca zirvəyə - şəhidlik zirvəsinə yüksəlir, xatirələrdə əbədiləşir, Vətən üçün, xalq üçün bir rəmzə çevrilir - qəhrəmanlıq rəmzinə". Rayon təşkilat sədri qeyd edib ki, şəhidlərimizin qəhrəmanlığını Vətən heç vaxt unutmayacaq və hər bir gənc azərbaycanlı torpaqlarımızın qaytarılması uğrunda Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevin ətrafında daha sıx birləşiblər. Bu gün Azərbaycan şəhidlərimizin qanını ala biləcək güclü ordumuz var.

YAP İsmayıllı rayon təşkilatı gənclər birliyinin sədri, GİI-nin rəisi Taleh Salehov, rayon təşkilatı gənclər birliyinin idarə heyətinin üzvü Ramid Qasımov, Bənövşə İsmayılova, rayon qadınlar şurası sədrinin müavini Gülnar Mikayılova və başqaları çıxış edərək, qeyd ediblər ki, Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf yoluna qədəm qoyan Azərbaycan Silahlı Qüvvələri bu gün Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında öz şərəfli missiyasını uğurla davam etdirir. Qarşıya qoyulan hər hansı tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarına malik Azərbaycan Silahlı Qüvvələri NATO standartlarına cavab verən səviyyədə formalaşmışdır. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu Ümummilli Lider Heydər Əliyevin başladığı və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasəti nəticəsində gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. Bildirilib ki, şəhid olmuş igid vətən oğullarının xatirəsi daim əziz tutulacaq, onların intiqamını almaq hər bir Azərbaycan övladının borcudur.

Aksiyanın sonunda Qarabağ müharibəsində, Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etmiş qəhrəmanlıqla şəhid olmuş əsgərlərimizin məzarları ziyarət edilmiş, məzarların ətrafında təmizlik işləri aparılmış, səliqə-sahman yaradılmışdır.

**ZÜMRÜD**

# YAP Xaçmaz rayon təşkilatının şura iclası keçirilib



Dünən YAP Xaçmaz rayon təşkilatında cari ilin 6 ayında görülən işlərin yekunlarına dair şura iclası keçirilib. Tədbirdə YAP Xaçmaz rayon təşkilatının fəalları iştirak ediblər. Tədbiri giriş sözü ilə YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev açaraq, Prezident İlham Əliyevin hakimiyyətdə olduğu müddətin Azərbaycanda sosial-iqtisadi intibah dövrü kimi tarixə düşdüyünü nəzərə çatdırıb: "Bu müddət ərzində Azərbaycanda bütün sahələrdə böyük tərəqqi baş vermiş, ölkəmiz dünyanın ən sürətlə inkişaf edən ölkələrindən birinə çevrilərək, dövlətimizin beynəlxalq aləmdə, dünya birliyində mövqeyi daha da möhkəmlənmişdir. Həyatımızda baş verən ciddi, müsbət dəyişikliklər Ulu Öndər Heydər Əliyev siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla, parlaq şəkildə davam etdirilməsinin nəticəsidir".

N.Ağayev son illər ərzində həm bölgədə, həm də dünyada çox böyük nüfuz qazanan, söz sahibi olan, ildən-ilə yeni-yeni zəfərlərə imza atan Azərbaycanın sürətlə inkişaf etdiyini bildirərək qeyd edib ki, Azərbaycanın inkişaf strategiyasının yeni modeli Ümummilli Lider Heydər Əliyev tərəfindən formalaşdırılıb və bu gün bu strateji kursu uğurla davam etdirən Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev ölkənin sürətli tərəqqisini təmin edib: "Cənab Prezident İlham Əliyevin Avropa Şurasındakı milli maraqlarımız naminə çox dəyərli və beynəlxalq əhəmiyyətli son çıxışı Azərbaycanın regiondakı gücünü, dünya arenasındakı mövqeyini bir daha sübut etdi". YAP Xaçmaz rayon təşkilatının sədri onu da vurğulayıb ki, cəmiyyətimizin siyasi həyatında aparıcı qüvvə hesab edilən və bunu əməli fəaliyyəti ilə sübut edən YAP Azərbaycanın bir-birindən uğurlu qalibiyyət yürüşlərində öz Lideri Cənab İlham Əliyevin yorulmaz və əməli fəaliyyətinə dəstək olmuş, təkanverici qüvvə kimi səfərbəredici rol oynamışdır. N.Ağayev, həmçinin Yeni Azərbaycan Partiyasının "Yay məktəbi" kampaniyası ilə bağlı keçirdiyi layihə barədə də danışaraq bu layihənin partiyanın gənclər təşkilatı tərəfindən uğurla həyata keçirildiyini bildirib. Qeyd edib ki, bu layihənin həyata keçirilməsi gənclərin dünyaya baxışlarına təkan verəcək.

YAP-ın bu ilin dekabr ayında Azərbaycanda keçiriləcək növbəti bələdiyyə seçkilərinə ciddi hazırlaşdığını deyən N.Ağayev vurğulayıb ki, əvvəlki seçkilərdə olduğu kimi, Yeni Azərbaycan Partiyası dekabrda keçiriləcək bələdiyyə seçkilərinə ciddi şəkildə və səylə hazırlaşır: "Hesab etmək olar ki, cari 2014-cü il də Azərbaycanda siyasi fəallıq baxımından seçkilər ili sayılmalıdır. Məhz bu il baş tutacaq bələdiyyə seçkiləri də sözügedən faktorun tərkib hissəsidir. Xaçmaz rayon təşkilatı da öz növbəsində fəaliyyətini davam etdirməkdədir. Bu məqsədlə rayon təşkilatında verilmiş tövsiyyələrə əsasən işlər aparılır".

Hesabat məruzəsi ətrafında çıxış edən rayon təşkilatının sədrinin müavini Yetkin Mehmanov çıxış edərək seçkinin ölkənin ictimai-siyasi həyatında əhəmiyyətindən danışaraq dekabrda keçiriləcək bələdiyyə seçkilərində maksimum hazır olmaqla başlamalıyıq: "Bu gün ölkədə Prezident Cənab İlham Əliyevin rəhbərliyi altında xüsusilə bölgələrdə və regionlarda aparılan genişmiqyaslı quruculuq-abadlıq işləri, iqtisadi inkişaf, insanların rifahının yaxşılaşdırılması, regionların simasının dəyişməsi, infrastruktur sahəsində həyata keçirilən böyük dəyişikləri-bütün bunların hamısı regionlarda insanların həyatında, məişətində müsbət dəyişikliklər yaradıb. Əlbəttə ki, bütün bunların hamısı yerli özünüidarə orqanlarına seçkilərdə YAP-ın istinad edə biləcəyi böyük resursdur və biz inanırıq ki, məhz bu resursun sayəsində, Cənab Prezident İlham Əliyevin gördüyü işlərin təbliği sayəsində YAP növbəti bələdiyyə seçkilərində uğur qazanacaq".

Tədbirdə digər çıxış edənlər əminliklə vurğuladılar ki, bu seçki ili də ötən seçki illərində olduğu kimi zəfər ili qismində qələbə tariximizə yazılacaq.

**Ü.ƏSGƏROV**

## Şərq Tərəfdaşlığı ölkələri xarici işlər və enerji nazirlərinin növbəti görüşü Bakıda keçiriləcək

Şərq Tərəfdaşlığı ölkələrinin xarici işlər və enerji nazirlərinin növbəti görüşü sentyabrın 8-9-da Azərbaycanda keçiriləcək.

Yüksək səviyyəli bu konfrans gücləndirilmiş siyasi dialoq vasitəsilə Avropa Şurasının qonşuluq siyasətinin əhatə etdiyi dövlətlər arasında uzunmüddətli əlaqələr yaradılması imkanlarının araşdırılmasına töhfə vermək məqsədi daşıyır. İki qitənin kəsişməsində yerləşən, Avropa və Asiya ölkələrilə möhkəm tarixi əlaqələrə malik olan, hazırda isə Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik edən Azərbaycan daha təhlükəsiz və əmin-aman qonşuluğun təmin edilməsi istiqamətində Avropanın səylərini dəstəkləmək niyyətindədir. Azərbaycanın sədrliyi dövründə planlaşdırılan digər bir tədbir isə Avropa İrs Gününün qeyd olunmasıdır. Oktyabrın əvvəlində Bakıda keçirilməsi nəzərdə tutulan bu tədbirin məqsədi mədəni irsin qorunmasına olan ehtiyac və onun əhəmiyyəti barədə məlumatlandırmanı artırmaqdır.

# Əli Kərimli niyə susur?

## Hürrü Əliyevin iddiaları AXCP sədrinin böyük günahlara batdığını kifayət qədər təsdiq edir

***Əbülfəz Elçibəyin qardaşı oğlu Hürrü Əliyevin AXCP sədri Əli Kərimli haqqında irəli sürdüyü tutarlı iddiaları cəmiyyətdə rezonans doğursa da "cəbhə" sədri bu kimi ittihamlar qarşısında demək olar ki, susqunluq nümayiş etdirdi. Lakin onun yerinə digər AXCP funksionerləri bir neçə məntiqsiz bəyanatlar səsləndirməklə, məsələ ətrafında fikir çaşqınlığı yaratmağa çalışdılar. Ancaq "haqq nazilər, üzülməz" məsəli hər zaman olduğu kimi, bu dəfə də ədalətli məcrada inkişaf etdi.***



### Əli Kərimli guya ittihamlardan "qorxmadığını" sərgiləməyə çalışsa da, onun hansı təlaş hissi keçirməsini də təsəvvür etmək asandır

Belə ki, Ə.Elçibəyin zəhərlənməsinə dair məsələ hələ də səngimir. Onu da xatırladaq ki, Ə.Kərimlinin Ə.Elçibəyə sui-qəsd etməsini yalnız Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev və KXCP üzvü, bayraqdar Elman Türkoğlu və mərhum eks-prezidentin qardaşı oğlu Hürrü Əliyev səsləndirməyib. Çünki AXCP sədrinin cinayətkar əməlləri haqqında vaxtilə "cəbhədə" olmuş, milli azadlıq hərəkatının iştirakçıları da onun kirli əməlləri barədə bir çox məlumatlar veriblər. Ancaq Ə.Kərimli guya bu kimi ittihamlardan "qorxmadığını" sərgiləməyə çalışsa da, onun kənarda hansı təlaş hissi keçirməsini də təsəvvür etmək asandır. Çünki məhz Hürrü Əliyev onun Almurad Əliyevin yanına gedərək, məsələni ictimailəşdirməməsini xahiş etməsini bildirməsi həqiqətin əsl tərəfini bir daha ortaya qoyur.

### Hafiz Hacıyev: "Ya bu həftə, ya da gələn həftə Əli Kərimli prokurorluqda dindiriləcək"

Bu arada Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev qeyd edib ki, Azərbaycanın eks-prezidenti Ə.Elçibəyin zəhərlənərək öldürülməsinə dair Bakı şəhər Prokurorluğunda başlanan cinayət işi artıq yekunlaşıb. MMP-nin rəhbəri həmçinin AXCP sədri Ə.Kərimlinin bu həftə prokurorluqda dindiriləcəyini də deyib: "Onlar arzu edirlər ki, mən geri çəkilim. Əli Kərimlinin Əbülfəz Elçibəyi zəhərləməsi artıq tam sübuta yetirilib. Mən heç vaxt iddiamdan geri çəkilməmişəm, çəkilməyəcəm də".

H.Hacıyev vurğulayıb ki, əleyhdarlarının həqiqəti gizlətməyə çalışmaları onların öz ziyanına işləyəcək: "Onların belə yalan məlumatlar yaymaqla ictimaiyyəti aldatmaları başlarına bəla gətirəcək. Artıq istintaq yekunlaşıb, iş məhkəməyə göndərilir. Mən hər gün istintaqla maraqlanıram. Əli Kərimli etdiyi cinayətə görə cəzasını çəkməlidir".

Xatırladaq ki, Ə.Elçibəyin qəsdən zəhərlənməsinin araşdırılması məqsədilə Cinayət Məcəlləsinin 29, 120.1-ci (qəsdən adam öldürməyə cəhd) maddəsi ilə cinayət işi açılıb. Hazırda Ə.Kərimli ona qarşı sürülən ittihamlarla razılaşmadığını bildirsə də, nəticə və faktlar onun bu iddialarının üzərindən çalın-çarpaz xətlər çəkməkdədir.

**RƏFİQƏ**

# Uğursuz yolun çıxılmaz labirinti

## Və ya yaradılacaq növbəti "birliklər" də düşərgənin passiv vəziyyətdə qalacağını şərtləndirir

***Məlum olduğu kimi, öz siyasi ömrünü çoxdan başa vurmuş dağıdıcı müxalifət hər seçki öncəsində olduğu kimi, bu dəfə də iflasa məhkum olduğu qabaqcadan aydın görünən qurumlarla gündəmdə qalmaq istəyiblər. O səbəbdən ki, 1993-cü ildən ötən 20 il ərzində müxalifətin çoxlu sayda birlikləri, siyasi və ya seçki blokları ən müxtəlif adlarla mövcud fəaliyyət göstərmiş və son nəticəsi uğursuzluq olub. O da sirr deyil ki, bu ilin sonunda keçiriləcək bələdiyyə seçkilərindən sonra, növbəti il daha bir seçki - parlament seçkisi baş tutacaq ki, bu seçkilərdə də müxalifətin iştirakı şübhəsiz ki, baş verəcək. Məhz belə bir məqamda və məğlubiyyət fonunda ənənəvi müxalifət yenə də növbəti birliklər yaratmaqla yanaşı düşərgədə ziddiyyətlər də səngimir.***





Belə ki, bu gün özlərini müxalifət düşərgəsinin aparıcı partiyaları hesab edən Müsavatla AXCP arasında yaşanan gərginlik, xüsusilə də "mənəmlik" hər iki iddialı siyasi təşkilatın uğursuzluq zolağından çıxmasına imkan verməyib. Məsələn, hələ 2010-cu ildə keçirilən parlament seçkiləri ərəfəsində baş verən Müsavat-AXCP qarşıdurmasını bir daha xatırlayaq. Həmin vaxtlarda da Əli Kərimlinin İsa Qəmbəri hədəfə aldığı deyilirdi. Maraqlıdır ki, həmin proses bu gün də davam edir.

Digər bir məqam isə, Müsavat partiyasının "Milli Şura"dan ayrılması, növbəti seçkilərə AXCP-siz gedəcəyini bəyan etməsi, o cümlədən, partiyaların bir-birilərini hakimiyyətə işləməkdə suçlamaları ənənəvi düşmənçiliyin bariz nəticəsidir. Ona görə də indidən proqnozlaşdırmaq mümkündür ki, istər AXCP, istərsə də Müsavat əlinə imkan düşən kimi, bu ittihamları dərinləşdirəcək və qarşıdan gələn bələdiyyə, eyni zamanda parlament seçkilərində qarşılıqlı olaraq ittihamlar burulğanları yaşanacaq. Bütün bu deyilənlərlə yanaşı, müxalifətin üzləşdiyi bu problemin mahiyyətində dayanan bir sıra səbəblər var. Ən əsas səbəb isə, müxalifət düşərgəsində birinin sözü digərinin boğazından keçmir.

### Yaradılan birliklər müxalifətin növbəti uğursuzluğunu şərtləndirir

Seçkiərəfəsi yaranmış bu durumdan xilas younu müxtəlif birliklər və strukturlar təqdim etməkdə görsələr də, bu birlik və strukturların hamısı birmənalı olaraq uğursuzluqla nəticələnir. Çünki onların hamısı şəxsi təşəbbüslə, şəxsi maraqlar, yaxud birlik yaratmaq məqsədilə deyil, digərinin sosial bazasını ələ keçirmək üçün qurulan təşkilatlardır. Bu gün iqtidar öz üzərinə düşən vəzifəni yerinə yetirdiyi üçün cəmiyyət də iqtidarı dəstəkləyir. Cəmiyyətin iqtidarın dəyişilməsində marağı yoxdur. Müxalifət isə o vaxt güclü olur ki, iqtidar işləmir, zəif olur. Bu zaman cəmiyyətin böyük bir hissəsi müxalifəti dəstəkləyir, onun şüarlarının, siyasi xəttinin arxasınca gedir. Yaradılan həmin birliklər də üzdə yaradılan, cəmiyyətin daxilində sosial kökləri olmayan, cəmiyyətin istəyi ilə yaradılmayan strukturlardır. Kiçik bir qrupun onları dəstəkləməsi isə hələ sosial baza demək deyil. Reallıq milli qüvvənin Yeni Azərbaycan Partiyası olmasından ibarətdir. Cəmiyyətin böyük bir hissəsini öz sıralarında birləşdirmək, Azərbaycanın bütün coğrafiyası üzrə güclü ərazi təşkilatlarına malik olmaq, cəmiyyətin bütün problemlərinin həlli üzrə səmərəli fəaliyyət proqramlarını təqdim etmək bir reallıqdır. Yeni Azərbaycan Partiyası ümummilli maraqları özündə əks etdirən, milli köklərə söykənən, milli maraqları beynəlxalq aləmdə müdafiə edən bir siyasi partiyadır. 21 il ərzində bu təşkilat müxalifətdən iqtidaradək gəlib çıxıb. Eyni zamanda, artıq 20 ildir ki, hər seçkidən-seçkiyə qalib gəlir. Bu, sözün əsl mənasında güclü, nüfuzlu, cəmiyyətin onun mövcudluğunda marağı olan böyük bir qüvvədir".

### Ərəstun Oruclu: "Yanlış prinsiplər üzərində qurulan koalisiyalar uzunömürlü olmur, ola da bilməzlər"

"Şərq-Qərb" Siyasi və Strateji Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Ərəstun Oruclu isə bildirib ki, müxalifətin birlik modellərinin uğursuzluğa düçar olmasının səbəbi fərdlər üzərində qurulmasıdır: "Nə qədər ki, müxalif koalisiyalar dəyərlər, prinsiplər, hədəflər, mövqelər üzərində deyil, fərdlər, partiyalar, qruplar üzərində qurulub, mən şəxsən bundan heç bir nəticə gözləmirəm. Çünki nə qədər ki, bu birliklər fərdlər üzərində yaranıb və onun mübahisəsi gedirsə ki, kim sədr olsun, ya olmasın, bu qrupun kvotası pozuldu və sair, bu şeylərin perspektivi sıfırdır. Yanlış prinsiplər üzərində qurulan koalisiyalar uzunömürlü olmur, ola da bilməzlər".

### Sərdar Cəlaloğlu: "AXCP-Müsavat müxalifətin uğursuzluğunun səbəbkarı və günahkarı olduğunu etiraf etməlidir"

Müxalifətin 20 ildə uğursuzluğa düçar olmasınının səbəblərinə aydınlıq gətirən Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu bildirib ki, 20 ildə müxalifətin məğlubiyyətləri AXCP-Müsavatın adına yazılmalıdır: "Müxalifət genişlənməsi və güclənməsi istiqamətində hər hansı nailiyyət əldə edə bilməyib. Əksinə, ilbeil geriləmələr müşahidə olunub. Ona görə də, AXCP-Müsavat aparıcı olmaq iddiasından imtina etməlidir. Çünki onların aparıcılıq iddiasında olması müxalifətə heç bir töhfə verməyib".

Müxalifətin uğursuzluğuna kimin cavabdeh olmağına gəlincə, S.Cəlaloğlu bildirdi ki, kim ki deyirsə mən müxalifətin əsas gücüyəm, o da müxalifətin bütün uğursuzluğuna cavabdeh olmalıdır: "Lakin desəydilər ki, bu uğursuzluqların mənə aidiyyatı yoxdur, bu, da çox gülünc səslənərdi. AXCP-Müsavat müxalifətin uğursuzluğunun səbəbkarı və günahkarı olduğunu açıq etiraf etməlidir. Yox, əgər etmirsə, o zaman bu partiyaları müxalifətin aparıcı qüvvələri kimi təqdim etmək düzgün deyil".

S.Cəlaloğlu bu müddət ərzində AXCP və Müsavatın apardığı siyasətdə fərqli bir dəyişilmə olmadığını vurğulayıb: "Yəni 20 il bundan qabaq necə münasibətlər var idisə, indi də həmin münasibətlər sərgilənir. Müxalifətdaxili münasibətlərin bugünkü duruma gəlməsində bu iki partiyanın günahı olduğunu etiraf edirəm".

**R.HÜSEYNOVA**

# Sarkisyan xalqın məngənəsində

## *Bunu ölkədə baş qaldıran etiraz dalğası da təsdiq edir*

***Ermənistandakı mövcud ictimai-siyasi vəziyyəti bir qədər primitiv, səthi şərh edərək "vəziyyət ağırdır, dözülməzdir" kimi də göstərmək mümkündür. Ancaq bu ifadələrlə ölkədəki durumu tam və dəqiq əks etdirmək olmaz. Çünki Ermənistanda vəziyyət ağır yox, həqiqətən də təhlükə astanasındadır və Soçi danışıqları və Dağlıq Qarabağı Gömrük İttifaqına daşımaq cəhdinin uğursuzluğu, təbii ki, Ermənistan prezidentinin psixikasına güclü təsir göstərib. Məhz bu səbədən də, bir tərəfdən də yalnız müxalifət liderləri deyil, bir sıra partiyaların da liderləri hər gün onu istefaya çağırırlar, deyirlər ki, bu, nə qədər tez olsa, həm ölkə, həm də Serjin özü üçün daha yaxşıdır.***

Erməni siyasətçiləri bildirilər ki, qəfildən Sarkisyanın ağılsız və düşünülməmiş bəyanatlarla çıxış etməsi onun dövlət xadiminin nitqindən çox hansısa cinayət qruplaşmasının komandirinin təhdidlərinə bənzəyən çıxış idi. Erməni eksperti Ruben Barents bildirir ki, bəs nə oldu ki, Sarkisyan belə başını itirdi: "Axı keçən şənbə və bazar o, Soçidə özünü siçan kimi sakit aparırdı. Qarabağ probleminin həlli ehtimalını müzakirə edirdi. Bazar ertəsi isə sanki zəncirini qırmışdı, bağırmağa başlamışdı ki, dağıdacaq, bombalayacaq və qıracaq. Sonra qəflətən bildirdi ki, məzuniyyətə gedir. Bəlkə də onun başına nəsə olub, özünü həkimlərə göstərə bilər. Çünki bu gün baş verənlər hələ ki, sadəcə, muştuluqdur. Yəni Qarabağdakı münaqişəni və Ermənistanın özündə baş verən hadisələri nəzərdə tuturam".

Ekspertin sözlərinə görə, son zamanlar Ermənistanda ictimai-siyasi vəziyyətdən narazı qalan kütlə ardıcıl aksiyalar keçirir: "Keçmiş döyüşçülərin aksiyasında isə hakimiyyətə daha sərt ittihamlar ünvanlanıb. Onlar mövcud iqtidarın yarıtmaz siyasətindən cana doyduqlarını bildirərək rəhbərliyin istefasını tələb edirlər. Sarkisyan rejiminin bütün təzyiqlərinə, polis və hərbçilərdən yararlanaraq narazı kütləyə divan tutmasına, ölkədə mütilik və hakimiyyətin qərarlarına sözsüz itaət mühiti yaratmağa yönəlmiş səylərinə rəğmən ölkənin ictimai-siyasi diskursu xofdan azad olmaqdadır. Bütün bunlar Sarkisyandan cəmiyyətə qarşı daha effektiv təbliğat vasitələrini, manipulyasiya texnologiyalarını işə salmağı tələb edərkən digər tərəfdən hər şey müvəqqəti təsir bağışlayır".

Ruben Barents, həmçinin bu günlərdə Sarkisyanın əhaliyə qarşı etdiyi çıxışının da ölkədə vəziyyətin daha da kriminal vəziyyətə düşəcəyini bildirib: "Sarkisyanın növbəti çıxışı zamanı ölkədə yaşayan yoxsul əhalini borclu çıxardıb. Ağlasığmaz çıxış yolu göstərən S.Sarkisyan "Suda boğulanlar gərək özləri-özlərini sudan çıxarsın" sözlərini deyərək erməni xalqının qəzəbinə səbəb olub... Erməni qəzetlərinin yazdığına görə, Serj Sarkisyan bu sözləri əhalinin yoxsulluq həddindən aşağı səviyyədə yaşayan 35 %-nə ünvanlayıb. Amma prezident çıxış yolunun necə tapılacağını deməyib".

Erməni ekspertlər bildirir ki, bu düşüncəli prezidentin hakimiyyətdə qalmasını erməni xalqı heç vaxt istəməyəcək, bunun çıxış yolu başı bədənində ikən istefa verib ölkəni tərk etsin: "Serj Sarkisyan altıncı ildir ki, vəzifədədir və onun reytinqi bu gün demək olar ki, zirzəmiyə düşüb. Bu müddət ərzində o, bir dəfə də olsun öz komandasının işinin nəticələrini xalqa göstərməyib. Əksinə, ölkədə getdikcə cinayətkar oliqarxiya sistemi güclənir. "Kriminal" adlı yoluxucu xəstəlik özünə məxsus adət və ənənələri olan respublikanın nazirliklərinə və başqa rəhbər vəzifələrinə getdikcə daha çox sirayət edir. Bununla yanaşı, ölkədə ərzaq məhsullarının nəzərə çarpacaq dərəcədə bahalaşması xalqın dilənçi vəziyyətinə düşməsinə gətirib çıxarıb. Belə görünür ki, hamını işləməyə çağıran Serj Sarkisyana xalq yaxın zamanlarda başqa iş tapacaqlar və o zaman o, heç nəyə görə məsuliyyət daşımayacaq".






### "Sarkisyan qan tökən daşnakdır"

Erməni ekspertləri onu da vurğulayırlar ki, rəhbər postunda oturan Sarkisyan rəhbərlik etmək bacarığından məhrum olduğuna görə xalq onu tənqid və ittiham edir, bəzən də ələ salır. Əvvəlki xəbərlərimizdə Ermənistanın çürüməkdə olan hakimiyyət-xalq münasibətindən məlumatlar vermişik. Onu da vurğulamışdıq ki, əhali Sarkisyanı kriminal şəxs kimi tanıyır, ətrafına topladığı insanların törətdiklərini cinayət kimi dəyərləndirirlər. Belə ki, erməni mətbuatı Soçidəki görüş zamanı prezidentlərin izlədikləri sambo yarışında iştirak edən Ermənistan prezidenti Sarkisyan haqda yazdıqları material diqqəti daha çox cəlb edəndir: "Yarışın gedişini izləyərkən bizim prezidentimiz Sarkisyanın üzündə olan ifadəyə baxın. Samboçular gözə və qaraciyər nahiyələrinə zərbə vuran zaman Sarkisyanın üzündə təbəssüm yaranır, sanki zövq alır bundan. Onu qınamaq olmaz, qanlı işlərdən həzz almaq onun keçmişində var - o, qan tökən daşnakdır. Vaxtilə özünün etdiklərini idmançıların ifasında görəndə sevinir bu daşnak".

Erməni yazarları bildirirlər ki, bu ermənilərdən Sarkisyana yeni bir ləqəb "hədiyyədir". Ancaq bu yazarlar yaxşı bilirlər ki, bu, heç də yeni bir ləqəb deyil, çünki Sarkisyan anadan olanda qaniçən, qan tökən daşnaklar kimi mənfur simaya malikdir".

Ermənistanın "Milli müqəddəratını təyinetmə" Birliyinin lideri Paruyr Ayrikyan və onun tərəfdarları belə bir qaniçənin hakimiyyətdə qalmamasını tələb ediblər. Paruyr Ayrikyan bildirib ki, Sarkisyanın etirazçıların qarşısına şəxsən çıxmayacağını bildiklərinə görə, ona istefa məktubu göndəriblər. Birlik rəhbəri, həmçinin bəyan edib ki, Sarkisyan məzuniyyətdən qayıtdıqdan sonra aclıq aksiyası keçirəcəklər.

### Erməni deputatdan Sarkisyana kəskin ittihamlar

Ermənistan Milli Konqresinin üzvü, deputat Nikol Paşinyan keçirilən mitinq zamanı nazir və prezidentə səslənərək deyib ki, "Cənab Sarkisyanlar, siz artıq Ermənistandakı mövcud vəziyyətin fərqinə varmalısız. 80% erməni əhalisi sizin istefanızı tələb edir: "Ümumiyyətlə, hər iki Sarkisyan özlərinin bu ölkədə kim olduqlarını və hansı səviyyəyə malik olduqlarını dərk etməlidirlər. Bu gün "Azadlıq" meydanına toplaşan bu qədər insanın və o cümlədən erməni xalqının hər şeyini əlindən alıblar, az qalıblar dərilərini də soysunlar. Ermənistanda 20% olan elit təbəqə qalan 80% təbəqəyə necə yaşamağı diktə edir. Mən bu gün bu sözləri 5, 10 və ya 50 dram üçün demirəm. Mən 80 % xalqın adından demokratiya və konstitusiya üçün danışıram. Bu gün Ermənistan hakimiyyəti pul axtarışındadır. Lakin onlara səslənərək demək istəyirəm ki, artıq 80% xalqı qarət etmisiniz. İndi onların içində pul axtarmaq düzgün deyil. Xalqın cibinə toxunmayın. Sizə axarı olan pul lazımdırsa, o zaman korrupsiyalaşmış məmurlara və ya oliqarxlara müraciət edin. Beynəlxalq "Global Financial İntegrity" şirkətinin apardığı araşdırmalara əsasən, Ermənistandan qanunsuz olaraq, 6,2 milyard dollar maddi vəsait çıxarılıb".

### Ermənistanda Sarkisyana qarşı gizli çevriliş hazırlanır

Erməni mətbuatının yazdığına görə, siyasətçilər tətildən istifadə edərək fəal şəkildə rayonlara gedib sakinlərlə görüşlər keçirirlər. Erməni şərhçi Naira Ayrumyan bunu Ermənistanda gözlənən hakimiyyət çevrilişinin əlaməti kimi dəyərləndirib: "Belə işlər adətən seçki zamanı edilir. Görünür, erməni siyasətçiləri yaxınlaşan dəyişikliyi hiss ediblər və əvvəlcədən buna hazırlaşmağa başlayıblar".

Şərhçinin sözlərinə görə, Ermənistanın siyasi elitası cəmiyyətin ehtiyaclarından və dövlətin real öhdəliklərindən çox uzaqlaşıblar: "Son zamanlarda dövlət qərarlarının qəbul edilməsi Rusiyaya həvalə edilib, az miqdarda kiçik yerli qərarlar isə oliqarxlar tərəfindən verilir".

Naira Ayrumyan onu da bildirib ki, hazırda Ermənistan rəhbərliyi əsasən Rusiyayönümlü qərarlar qəbul edir və Serj Sarkisyan başqa istiqamət tanımadığı üçün Moskvanın müti qulu kimi ölkəsini Avrasiya İttifaqına doğru aparmaqdan başqa yol tanımır: "Rusiyaya qarşı ABŞ-ın sanksiyaları fonunda bu, bir sıra erməni siyasətçilər tərəfindən normal sayılmır. Artıq ABŞ öz ehtiyat fondundan bazara neft çıxarmağa başlayıb və bu, ilk dəfə olaraq neft fyuçerslərinin qiymətini barrel üçün 100 dollardan aşağı enməyə məcbur edib. Rusiya büdcəsində isə neftin qiyməti 102 dollar nəzərdə tutulub. ABŞ bu siyasətini davam etdirsə, Ukrayna ilə müharibə aparan Rusiya Sovet İttifaqının taleyini təkrarlayacaq. Nəticədə, eynən SSRİ kimi xaricdəki hərbi bazaları bağlamağa və daxili problemləri həll etməyə məcbur olacaq. O zaman Ermənistan havada qalacaq və vaxtında Qərbə üz tutmadığına görə, Avropa İttifaqının qapıları da üzünə bağlı olacaq. Ermənilər Aİ ilə Moskva arasında manevr edə biləcək bir lider istəyirlər. Hələ komsomol vaxtından Moskvanın zombisinə çevrilmiş Serj Sarkisyan bu cür manevr imkanlarına malik deyil. Ona görə də, ermənilər, təbii ki, yeni lider axtarışındadırlar. Bu lider, bəlkə də, artıq məlumdur. Sadəcə, 1999-cu il oktyabrın 27-də parlamentdə Karen Demirçyanın öldürülməsini nəzərə alaraq onun adını açıqlamırlar. Əks halda, eyni qüvvələr yeni lideri də aradan götürə bilərlər".

**A.SƏMƏDOVA**

# İraqda hakimiyyət dəyişikliyi: geosiyasi məqamların kəsişməsində

*Rəsmi Bağdad mürəkkəb siyasi proseslərin təsiri altındadır. Cəlal Tələbani ölkəyə başçılıq etmək iqtidarını itirdikdən sonra yeni prezidentin müəyyənləşməsi yüksək dairələrdə gərginlik yaratdı. Müzakirələrdən sonra dövlət başçısı kürd siyasətçi Fuad Məsum seçildi. Bunun ardından baş nazir məsələsi aktuallaşdı. Lakin həmin proseslərin fonunda ölkədə terrorun vüsət alması çoxlu sayda siyasi və geosiyasi suallar meydana çıxardı. Ekspertlər İraqda proseslərin inkişafı ilə bağlı fərqli ssenarilər irəli sürürlər. Reallıqda ölkə daxilində mürəkkəb vəziyyət yaranıb. Məsələnin regional və qlobal miqyasda cərəyan edən geosiyasi proseslər müstəvisində bir sıra aktual tərəfi vardır. Hadisələrin sonrakı inkişafına fərqli yanaşmalar mövcuddur.*



### Rəsmi Bağdadın çətin günləri: siyasi gərginlik yüksəlir

İraqda prezident və baş nazir dəyişdi. Bir qədər əvvəl ölkə başçısı vəzifəsinə milliyyətcə kürd olan Fuad Məsum seçilmişdi. Onun təqdimatı ilə namizədliyi şiə partiyalarının daxil olduğu “Milli alyans” koalisiyası tərəfindən irəli sürülmüş parlamentin sabiq vitse-spikeri Heydər Abadi baş nazir təyin edildi. Artıq keçmiş hökumət başçısı olan Nuri əl-Maliki əvvəlcə bu təyinata etiraz etdi. Hətta onun xüsusi təyinatlı dəstələri dövlətin rəsmi idarələrinin yerləşdiyi məhəlləni mühasirəyə aldı və prezident F.Məsum məhkəməyə verildi. KİV-də yayılan məlumatlara görə, ABŞ və İranın təzyiqi ilə əl-Maliki mövqeyindən geri çəkilərək istefa verib (bax: Irak’ta Başbakan Maliki görevini bıraktı / “Habertürk”, 14 avqust 2014).

Regionun böyük dövlətlərinin İraqdakı bu yeniləşməni dəstəklədiyi haqqında xəbərlər yayılıb. Prosesin iki aspektdən maraq doğurduğunu vurğulamaq olar. Birincisi, hansı daxili səbəblər İraq iqtidarını bu cür dəyişikliyə məcbur edib? İkincisi, ABŞ və İranı İraq məsələsində birləşdirən ortaq geosiyasi məqamlar hansılardır?

İraqın keçmiş prezidenti, kürd əsilli Cəlal Tələbani xəstəliyi səbəbindən vəzifəsini yerinə yetirə bilmədi. Uzun müzakirələrdən sonra onu eyni siyasi görüşlərə malik, kürd əsilli Fuad Məsum ilə əvəzləməyə qərar verildi. Bu məsələdə əsas mübarizə şiələrlə kürdlər arasında getdi.

Bununla İraqda prezidentin dəyişməsinin ölkənin siyasi kursunda yeniləşməni ifadə etmədiyi mesajı verildi. Daxili siyasi mühitdə qarşıdurma yaratmamaq üçün atılan bu addımı, demək olar ki, ölkədəki bütün qüvvələr və regionun böyük dövlətləri dəstəklədi.

Baş nazir məsələsində isə nəinki sünnilərlə şiələr, hətta sonuncuların da öz aralarında fikir ayrılığı özünü göstərdi. Məsələ İranın da Malikidən yaxa qurtarmaq istəyi ilə bağlı idi. Çünki Tehran hesab edir ki, Maliki regionda şiələrin geosiyasi rolunu lazımi səviyyədə təmin edə bilmədi və bir sıra qüvvələrlə düşmənçilik yaratdı. Burada ilk olaraq “İraq və Şam İslam Dövləti” (İŞİD) təşkilatının İraq ordusuna vurduğu ağır zərbələri qeyd etmək lazımdır.

Ölkənin siyasi səhnəsində cərəyan edən bu proseslərin kökündə daxildə vəziyyətin kəskinləşməsi durur. İŞİD İraqın sosial-siyasi məkanına sözün həqiqi mənasında “fırtına” kimi daxil oldu. Qısa müddətdə xeyli ərazi işğal edildi və xüsusi amansızlıqla insanlar qorxuduldu.

Hazırda bu təşkilat həm mərkəzi hökumət qüvvələrinə, həm də döyüş hazırlığı haqqında yüksək fikirlər söylənilən peşmərgələrə qarşı müharibə aparır. Hər iki cəbhədə İŞİD-in vəziyyəti pis deyil. Terrorçular o dərəcədə uğurlu hərəkət edirlər ki, hətta Ərbil və Bağdadı da təhdid altında saxlayırlar (bax: Hedefte IŞİD var! / “Habertürk”, 13 avqust 2014).

İraq indi faktiki olaraq bir neçə qüvvənin təsiri altında parçalanmış vəziyyətdədir. Ölkənin şimalına kürdlər, mərkəzi bölgələr və Suriya sərhədlərinin bəzi yerlərinə İŞİD, Bağdad, şərq və cənub-şərq əyalətlərinə isə hökumət nəzarət edir. Bunların sırasında indi ən fəalı İŞİD-dir. Bu təşkilat yezidi kürdləri, türkmənləri və xüsusən də şiə ərəbləri öz yurdlarından didərgin salıb. Bu prosesdə kürdlərin hərbi qüvvələrinin zəifliyi də üzə çıxdı. Qısa desək, İraqda İŞİD-in qarşısını kəsə biləcək qüvvə yoxdur! Qərb bu cür gedişatdan çox narahat olduğunu bildirib (bax: Obama Ezidilere operasyon için net konuştu! / “Habertürk”, 14 avqust 2014).

Yuxarıda qeyd edilənlər göstərir ki, İraqda hakimiyyətdə baş verən dəyişikliklərin kökündə daxili vəziyyətin mürəkkəbləşməsi durur. Bununla rəsmi Bağdad siyasi kursu dəyişmədən (çünki bu, xarici qüvvələrin ölkəyə təzyiqləri artırması ilə nəticələnə bilərdi), terrora və separatçılığa qarşı səmərəli fəaliyyət göstərmək istəyir. Həmin sırada İraqın enerji ehtiyatları uğrunda ölkə daxilində mövcud olan təşkilatlar arasında mübarizədə kompromis əldə etməyə çalışır. Məsələn, hazırda kürdlərlə mərkəzi hökumət arasında bu məsələdə bəzi anlaşılmazlıq vardır.

Deməli, rəsmi Bağdad daxili vəziyyətin gərginliyindən ehtiyat edərək, siyasi qüvvələr arasında mövcud balansı pozmadan konsolidasiyanı saxlamaq və həmin şərtlər çərçivəsində terrorla mübarizəni gücləndirmək fikrindədir.

### İraq böhranının regional konteksti: terror təhdidi və geosiyasi maraqlar

Lakin yaranmış vəziyyətə bütövlükdə Yaxın Şərqdəki geosiyasi dinamikanın məntiqi prizmasından baxdıqda, daha təhlükəli bir məqam üzə çıxır ki, bu da - kənardan ölkəyə müdaxiləyə ehtiyacın yaranmasıdır. Həmin bağlılıqda böyük dövlətlərin İraq uğrunda geosiyasi mübarizələrinin yeni məzmun çalarları kəsb etdiyini demək mümkündür.

Bu kontekstdə mütəxəssisləri ABŞ-İran yaxınlaşmasının məzmunu xeyli dərəcədə maraqlandırıb. Xüsusilə, əl-Maliki ilə bağlı Vaşinqton-Tehran razılaşmasının arxasında nələrin durduğu ekspertləri düşündürür. Həmin aspektdə İraqda “müstəqil Kürdüstan dövləti” və İŞİD məsələləri aktuallıq kəsb edir.

Hər iki amilin regionun böyük dövlətlərinin geosiyasi maraqlarına zərbə vurduğu qənaəti var. Lakin Yaxın Şərq ölkələrinin hamısını bu aspektdə eyniləşdirmək olmaz. İran, Türkiyə, Suriya, İraq, Səudiyyə Ərəbistanı, Misir və digərlərin hər birinin özünəməxsus mövqeyi vardır.

Məsələn, ekspertlər Türkiyənin “regional kürd hökuməti” ilə İŞİD məsələlərində dilemma qarşısında qaldığı fikrini irəli sürürlər. Bunun əsas səbəbi Əhməd Davudoğlunun “qonşularla sıfır problem” siyasi kursunun ciddi çətinliklərə düşməsi ilə bağlıdır (bax: məs., Seçkin K stem. Blijnevostoçnaə dilemma Turüii. Reqionalğnoe pravitelğstvo Kurdistana i İQİL / “Rossiyskiy sovet po mejdunarodnım delam”, 8 avqust 2014).

Bunun fonunda İran və Səudiyyə Ərəbistanının mövqeləri fərqləndirilir. İŞİD müəyyən dərəcədə Ər-Riyadın planı hesab edirlirsə, İran Qərblə əlaqələrin qurulması aspektində təqdim edilir. Bir sıra ekspertlər Tehranın bu siyasətini “praqmatik və gerçəkçi” siyasət kimi qiymətləndirirlər (bax: Mehmet Seyfettin Erol. Bağdatta Maliki Darbesi! / “Milli Gazete”, 14 avqust 2014). Maraqlı məqam da elə məhz bundan ibarətdir ki, Yaxın Şərqin böyük dövlətləri geosiyasi aspektdə qarşı-qarşıya qoyulur, onların fərqli məqsədlər güddüyü fikri aşılanır.

Nəhayət, İraqda baş verən proseslərə Qərb tərəfdən aktiv müdaxilə edən dövlət ABŞ-dır. O, məhdud sayda hərbi kontingenti həmin ölkəyə qaytarmağa başlayıb. Vaşinqtonun bu təşəbbüsünü Böyük Britaniya, Almaniya və Fransa dəstəkləyir. Buna baxmayaraq, İraqın parçalanmasının dönməz proses olduğu fikri söylənilir (bax: Paddy Ashdown. Western intervention over Isis won’t prevent the break-up of Iraq / “The Guardian”, 14 avqust 2014).

Bunlardan özlüyündə belə bir nəticə hasil olur ki, İraqda baş verən dəyişikliklər daxili sosial-siyasi mühitdə müşahidə edilən mürəkkəbliklərlə və xarici qüvvələrin Yaxın Şərqdəki geosiyasi maraqlarının məzmunu ilə bağlıdır. Qərb İraqda hər hansı region dövlətinin nüfuzunun artmasına razı deyil. Bu səbəbdən buradakı mövqelərini qorumaq üçün Qərb dövlətlərinin hərbi müdaxiləsi istisna olunmur. İsrail amilinin bu kontekstdə təsirini də inkar etmək düzgün olmazdı.

Təl-Əviv “Həmas”ın yeraltı keçidlərini məhv etməklə bölgədəki radikal dini qrupların təhdidindən müəyyən dərəcədə sığortalanmış oldu. Hazırda real vəziyyət belədir ki, İsrailə qarşı hərbi əməliyyatlar keçirmək planı olan terror təşkilatı yoxdur.

İŞİD İraqda möhkəmlənərsə, mümkündür ki, Təl-Əvivə təhlükə meydana gəlsin. Bu terror təşkilatını Qərb nəzarətdə saxlamağa çalışacaq və eyni zamanda, onu regionun müsəlman dövlətlərinə qarşı istiqamətləndirməyə cəhdlər göstərəcəkdir. Hər iki variantda İŞİD ilk növbədə müsəlmanlara təhdiddir. Deməli, İraq iqtidarındakı dəyişikliklər gələcək təlatümlü siyasi proseslərin ilk siqnalı ola bilər.

**Newtimes.az**

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

21 avqust 2014-cü il

# Öz arasında casus axtaran müxalifətdən başqa nə gözləmək olar?

## *Xəyanət, satqınçılıq və mənəviyyatsızlıq*

***Neçə vaxtdır ki, radikal müxalifət nümayəndələri öz aralarında casus axtarışına çıxmışdılar. Onların seçkiöncəsi xarici kəşfiyyat orqanlarının, anti-Azərbaycan dairələrin, habelə erməniпərəst beynəlxalq təşkilatların nümayəndələri ilə görüşləri və ölkəmizdə qarşıdurma yaratmaq üçün aldıqları külli miqdarda qrantlar barəsində məlumatların yayılmasında bir - birindən şübhələnirdilər. Hətta bəziləri israrla bildirirdilər ki, aldıqları qrantları yalnız özlərinə sərf edəndə bilməli idilər ki, bu işin üstü əvvəl - axır açılacaq.***

Dəfələrlə şahidi olmuşuq ki, xarici himayədarlarından daha çox qrant qoparmaq üçün min oyundan çıxan dağıdıcı müxalifət mitinq adı ilə hər hansı bir toplantı keçirəndə yersiz səs - küy yaratmaq üçün tüfeyli həyat tərzi keçirən adamlara 10 - 15 manat verəcəklərini vəd edərək onları meydanlara çağırmışlar. Mitinq başa çatar - çatmaz pul üstündə dava - dalaş başlamış, meydana gələnlər aldandıqlarını başa düşmüş və onları buraya dəvət edənləri söyə - söyə dağılışmışlar. Belə narazılardan biri də müxalifətin daha çox güvəndiyi Xədicə İsmayıl idi. O, bir dəfə onsuz da üzüqara olan müxalifəti daha da alçaltdı və milli adət - ənələrimizə yaraşmayan hərəkətlərini ört - basdır etmək üçün hakimiyyəti şantaj etməyə başladı. Bununla diqqəti özündən yayındırmağa çalışan Xədicə İsmayıl, əslində, AXCP sədri Əli Kərimli və radikal müxalifətin digər nümayəndələrinin sifarişlərini yerinə yetirirdi.

### Əli Kərimlinin tapşırıqlarını yerinə yetirən kəs

Hazırda hadisələrin gedişi göstərir ki, jurnalist Xədicə İsmayıl müxalifətin içərisinə daxil olmaqla Əli Kərimlinin tapşırıqlarını yerinə yetirirmiş. Bunu müxalifətdə olan siyasi partiyaların nümayəndələri də dəfələrlə təsdiqləyiblər. Məsələn, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası (BAXCP) sədrinin müavini Niyaməddin Orduxanlı bu məsələ barəsində açıqlama verərkən deyib ki, hələ bir neçə ay öncə jurnalist Xədicə İsmayılın hazırladığı "hakimiyyətə işləyən" siyasətçilərin və ictimai fəalların siyahısı AXCP sədri Əli Kərimlinin siyası maraqlarını təmin etməyə yönəlib. Niyaməddin Orduxanlı bildirib ki, Xədicə İsmayıl daim Əli Kərimlinin tapşırıqlarını yerinə yetirən və onun siyasi maraqlarından çıxış edən jurnalist olub və bu gün də onun nəzarətindədir. BAXCP sədrinin müavini X.İsmayılı uzun il-



lərdir ki tanıdığını və ona yaxından bələd olduğunu bildirib. Həmçinin bildirilib ki, 1997-98-ci illərdə Xədicə İsmayıl ilə eyni qəzetdə işləyiblər. O, həmin illərdən indiyə qədər Əli Kərimlinin gizli "Yurd" təşkilatının üzvüdür.

Xədicə İsmayıl eyni zamanda Əli Kərimlinin önə çıxması, onun ölkədə yeganə müxalifət lideri imicini formalaşdırması üçün İsa Qəmbəri də, digərlərini də ayaqlar altına atmağa qadir olan bir insandır. Yəni, Xədicə bunun üçün istənilən siyahını da verə bilər. Bu baxımdan birmənalı olaraq hesab edirəm ki, onun təqdim etdiyi siyahının təşəbbüskarı Əli Kərimlidir.

### Xədicə İsmayılın daha bir "qabiliyyəti"

Xatırladaq ki, Eynulla Fətullayev də Xədicə İsmayılın qərəzkar və araqarışdıran, xarici kəşfiyyat orqanları ilə əlaqəli olduğunu bəyan edərək deyib ki, bu adamın kiminlə münaqişəsi varsa, onun adını casusluqda hallandırır. Eynulla Fətullayev bildirib ki, Azərbaycan hökumətinə və dövlətinə qarşı hansısa təzyiq siyasətini həyata keçirmək istəyənlər, bir qayda olaraq, kompromatları Xədicəyə ötürür və o da ağlına gələni yazır. Fətullayev bununla bağlı deyib: "Bu jurnalistin nə analitik qabiliyyəti var, nə təfəkkürü, nə də publisistik istedadı. İndiyə qədər bir tutarlı məqalə yazmayıb. O, xarici ölkələrin casus və kəşfiyyat orqanlarının mənafeyinin müdafiəçisi qismində çıxış edir. Bir sözlə, satqındır. X.İsmayıl düşünür ki, guya ABŞ hökumətinin bəzi təmsilçiləri, kəşfiyyat orqanları tərəfindən etibarlı şəxs kimi tanınır. Amma yanılır. O, kompromatlar vasitəsilə sevmədiyi insanlara zərbə vurur".

Xədicə İsmayılın daha bir "qabiliyyəti" də var. Ölkəmizdə hər hansı bir hərbi xidmətçi şəhid olursa, dərhal onun valideynlərini qızışdıraraq hakimiyyətə qarşı qaldırmağa, beynəlxalq təşkilatlara müraciət etməyə cəhd göstərir. Şəhidin valideynləri buna razılıq verməyəndə isə Xədicə İsmayıl həmin valideynləri təhqir edir, onları "hakimiyyətlə bazarlıqda" ittiham edir. Bu ünsürün "Oğlunun meyiti üzərində bazarlıq etməyən anaya ehtiyacı var bu məmləkətin" məqaləsi də cəbhədə şəhid olmuş əsgərimizin anasının bu satqın jurnalistin təklifləri ilə razılaşmadığından sonra müxalifət mətbuatında yer almışdı. Milli Məclisin deputatı Jalə Əliyeva "əsgər anasını təhqir etmək Azərbaycan qadınına yaraşmaz" - deyərək Xədicənin bu çirkin fikirlərini kəskin tənqid etmişdi. Deputat bildirmişdi ki, oğlu şəhid olan ananı bu şəkildə təhqir etmək Azərbaycan qadınına yaraşmaz. Onun sözlərinə görə, X.İsmayılın bu fikirləri heç bir halda qəbul edilə bilməz: "Qadın nə qədər analıq duyğusundan məhrum və vicdansız olmalıdır ki, belə addım atsın?"

Oğlu şəhid olmuş ana vətəndaşlıq borcunu yerinə yetirərək xalqdan rica etdi ki, oğlunun ölümü üzərindən siyasi məqsədlər üçün istifadə edilməsin. Buna baxmayaraq, bir qrup "vətənpərvər" bu ananı oğlunun meyiti üzərində bazarlıq edən qadın kimi qələmə vermək istəyir. X.İsmayıl isə əsgər ölümü üzərindən ucuz spekulyasiyalar edir. Belələri sanki unudurlar ki, şəhidlik mövqeyi əlçatmaz bir zirvədir. Onlar Vətənimizin bütövlüyü, torpaqlarımızın azadlığı uğrunda canlarını qurban veriblər. Xədicə və onun kimilər üçün isə xalq, Vətən, millət xarici düşmənlərimizdən aldıqları külli miqdarda çirkli pullardır. Bu pullar isə gec-tez beləsinin və belələrinin burunlarından gələcək.

***Mübariz QULİYEV***



## Saqqallı uşaqlar

**SAMİR**

***İnsan dəhşətə gəlir, Müsavatı, AXCP-ni tanıdıqca adam saatlarla təəccüb içində yaşayır. Adamın yazığı da gəlir, bəzən İsa Qəmbərin, Əli Kərimlinin yerinə utanmağa da məcbur oluruq. Şou təkcə müğənni yığnağının ümumi etalonu deyil, bu, həm də Azərbaycan müxalifət düşərgəsinə şamil oluna biləcək bədbəxtlik göstəricisidir. Avqustun 18-də Müsavat partiyasında baş tutan iclasın biabırçılığını ən əxlaqsız qadın belə daşıya bilməz.***

Bir neçə ilə öncə "Lider" televiziyasında "Kuklalar" verilişi yayımlanırdı. Müxalifətin iç üzünü kuklalar vasitəsilə ifşa edən bu verilişin ən ümdə cəhəti o idi ki, İ.Qəmbərin xarakterini tamamilə aça bilirdi. Bəzən axşam bu verilişə baxıb, səhər açılan kimi İ.Qəmbər özü kuklaları yamsılayırdı. Söhbəti uzatmayaq, keçək avqustun 18-dəki iclasdakı dava-dalaşlara, dialoqlara. İclas əvvəldən axıra qədər rüsvayçı olaylara keçib. Ancaq ən yaddaqalan olay başqanlığa namizədlər Arif Hacılı ilə Qubad İbadoğlu arasında olub.

Dava A.Hacılının Q.İbadoğluya dediyi sözdən sonra başlayıb: "Sən QHT sektorunda milyonlar qazanırsan, partiyaya nə xidmətin keçib ki, başqan olmaq istəyirsən?" Q.İbadoğlu isə "sənin hansı bankda nə qədər pulun, harada villan varsa, açıb tökərəm" cavabını verib. Bundan sonra əsəbilərini cilovlaya bilməyən A.Hacılı yumruğunu tarazlayıb Q.İbadoğlunun üzərinə hücum çəkib, amma ətrafdakılar saqqalı uşaqların yumruq davasını sakitləşdirə biliblər.

Daha sonra Tural Abbaslı İ.Qəmbəri Hüseyn Məlikovu müşavirlikdən çıxartmaqla partiyanı zədələməkdə ittiham edib. İ.Qəmbər isə "bu mənim səlahiyyətimdir, sən münasibət bildirə bilməzsən, kim istəyirsə, partiyadan getsin" cavabını verib. Vurğun Əyyub isə İ.Qəmbəri partiyanı dağıtmaqda suçlayıb: "Arif Hacılını sən müdafiə edirsən, əlini çəksən, o, məhv olacaq". Buna cavabında İ.Qəmbər "Quran" çıxardıb ki, partiyadan getməyəcəyinizlə bağlı əl basın. İclasın sonu isə daha maraqlı və yaddaqalan olub. A.Hacılı deyib ki, başqan olmasam, partiyanı dağıdacam.

Əziz oxucular, məni bağışlayın, saçlarım ağardı, müxalifətin cəmi bir iclasında baş verənləri yazmağa abırhəya imkan vermir. Di gerisi özünüzə qaldı, tapın öyrənin.

## Tahir Kərimli: "Müsavat daxilindəki ziddiyyətlər partiyanın dağılma prosesini sürətləndirəcək"

Müsavat partiyası qurultay keçirmək barədə qərar versə də bunu reallaşdırmaq üçün heç bir addım atılmır. Bu isə partiya rəhbərliyinin, ümumiyyətlə, qurultay keçirməmək istəyini açıq şəkildə ortaya qoyur. Digər tərəfdən, görünən budur ki, Müsavat başqanı İsa Qəmbər, əslində, başqanlıq postunda qalmaq məqsədini güdür. O, eyni zamanda ətrafında şou yaradaraq, diqqətləri özünə cəlb etmək istəyir. Vəhdət partiyasının sədri Tahir Kərimlinin sözlərinə görə, müxalifət düşərgəsində təmsil olunan partiyaların qurultay keçirmək barədə qərar verməsi və bununla bağlı gözləmə mövqeyi tutması diqqət çəkməkdən başqa bir şey deyil: "Demək olar ki, müxalifət təmsilçilərinin işi, xüsusilə də Müsavat başqanının davranışları bir müddət gündəmdə qalmaq və özlərini gözə soxmaq üçün hər hansı bir məsələni ortaya ataraq, ondan özlərini reklam məqsədilə istifadə etməkdən ibarətdir". "Ümumiyyətlə, müxalifət təmsilçilərinin qurultaylarını böyük zalda keçirmək üçün heç bir sosial bazası yoxdur"-deyə qeyd edən Tahir Kərimli həmçinin qeyd edib ki, ona görə də, bunlar böyük zallar verilməməsi bəhanəsi ilə qurultay keçirmirlər: "Bu gün müxalifət partiya təmsilçiləri özlərinin daxili problemlərini həll edə bilmədiklərinə və həddsiz nüfuzdan düşdüklərinə görə öz qurultaylarını keçirmirlər".

Tahir Kərimlinin fikrincə, sözügedən hadisədən sonra, ümumiyyətlə, Müsavat partiyasını qoruyub saxlamaq mümkün deyil: "Yəni istər İsa Qəmbər başqanlıqda qalsın və ya kürsüsünü tərk etsin, bu, o qədər də önəmli deyil. Artıq partiya daxilində ziddiyyətlər baş alıb gedir və qarşısıalınmaz bir vəziyyətə gəlib çıxıb. Belə olan halda bu partiyanın dağılma prosesi daha da güclənir. Beləliklə, müxalifət partiyalarının bu cür gücsüz bir vəziyyətə düşməsinin əsas səbəbi həmin təşkilatlara rəhbərlik edən liderlərin şəxsi ambisiyalarının olmasından irəli gəlir. Çünki müxalifət partiya sədrləri heç vaxt partiya maraqlarını deyil, özlərinə sərf edən maraqlara xidmət edirlər. Belə olan halda da bu cür partiyalar belə çıxılmaz bir vəziyyətə düşür".

**GÜLYANƏ**

*Azərbaycanın zorla düçar olduğu müharibənin Ermənistanın əzəli torpaqlarımıza yersiz ərazi iddiaları ilə bağlı olduğunu göstərən Ulu Öndər deyirdi: "Biz müharibə istəmirik, Ermənistanın torpaqlarına göz dikməmişik. Biz öz torpaqlarımızı, öz ərazimizi, öz Vətənimizi qoruyuruq".*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" istiqaməti çərçivəsində hazırlanıb*

# Sülh mədəniyyəti hüquqi dövlətin əsas cəhətidir

Politoloqlar tərəflərin maraqları nəzərə alınmaqla münaqişənin dinc həlli və sülh mədəniyyətinin formalaşması mühitinin yaradılmasını labüd hesab edirlər: "Belə bir şəraitdə isə danışıqların gedişi sülhün imzalanmasının elə şəraitinin tapılmasına imkan verir ki, onlar münaqişənin yenidən qızışmasının və onun hərbi yolla həllinin bütün imkanlarını istisna edir. Burada sonuncu bənd xüsusilə vacibdir və onun əhəmiyyəti insanların bunu rasional pozitiv və praqmatik həll kimi dəstəklədiklərini, iradə və qətiyyətləri ilə bir daha təsdiq etmiş olur. Sülh mədəniyyəti prinsiplərinin praktiki formalaşması keçmiş opponentlərin ümumi demokratiya prinsipləri əsasında, vətəndaş və hüquqi dövlətin çoxsahəli mədəni və elmi əlaqələrin yaranması ilə iqtisadiyyat, dövlət quruculuğu sahəsində tərəf- müqabillik və əməkdaşlığın formalaşması və inkişafı yolu ilə gedir. Bu vaxtlar bir-birilə barışmaz surətdə vuruşan, yaxud münaqişə halında olan ölkələrin müasir fəal əməkdaşlığı, sülh mədəniyyətinin praktiki olmasına gözəl illüstrasiyadır".

Bəşəriyyət daim əbədi sülh axtarışında olmuş, sülh, dinclik, əmin-amanlıq uğrunda mübarizə aparmışdır. Beləliklə, hüquqi dövlət, demokratik cəmiyyət quruculuğu prosesində sülh mədəniyyəti formalaşmışdır. Sülh mədəniyyəti bəşəriyyətin idealı olmuş, idealı olaraq da qalmaqdadır. Beynəlxalq təşkilatların BMT-nin, YUNESKO-nun nizamnamələrində sülh mədəniyyəti öz əksini tapmışdır. BMT nizamnaməsində göstərilir: "Birləşmiş millətlərin xalqları, gələcək nəsilləri müharibə fəlakətindən xilas etmək qətiyyətilə insanların əsas hüquqlarına, insan şəxsiyyətinin ləyaqət və dəyərinə inam hissini yenidən tədqiq etmək və bu məqsədlərlə dözümlülük nümayiş etdirmək və mehriban qonşular kimi bir-biri ilə dinc yanaşı yaşamaq əzmindəyik".

1998-ci ilin sonunda isə yenə də YUNESKO-nun təşəbbüsü ilə 2000-ci ili rəsmən Sülh Mədəniyyəti İli elan etmişdir. Bununla əlaqədar olaraq, Nobel mükafatları laureatlarının təşəbbüsü ilə 2000-ci il sülh manifesti hazırlandı və YUNESKO bu təşəbbüsü bəyəndi. Sülh mədəniyyəti qeyri-zorakılığı, əsas hüquqlara və azadlıqlara hörmət, qarşılıqlı anlaşmaya, dözümlülüyə və həmrəyliyə, qadınların fəal iştiraka cəlb edilməsinə və onlara hakim funksiyaların tapşırılmasına, azad məlumat axınının qəbul edilməsinə və mübadiləsinə əsaslanmış ümumi məqsədlər, məqamlar, nəzərlər və davranışlar məcmusudur. Onu da deyək ki, Azərbaycan Respublikası Sülh Manifestini imzalayan ilk dövlətlərdən biridir.

Sülh mədəniyyəti - qeyri-zorakılıq, zor işlətməmək prinsipi dünya dinləri - xristianlıq, buddizm və islamda XVIII-XIX əsrlərin Qərbi Avropa filosofları və siyasətşünaslarının əsərlərində özünə geniş yer almışdır. Bütün dinlər, bir qayda olaraq, xalqlar arasında, Allah və bəşəriyyət arasında, barışın insan və canlılar arasında ahəngdarlığın ilahi qanun əsasında bərqərar olmasına sosial sülh - ədalət əsasında cəmiyyət daxilində sülhün bərqərar olmasını bəşəriyyətin inkişafında mühüm addım hesab edir.

İslam təliminə görə, "barışda Allahın rizası" olur. İslamda qadağan olunan əməllərdən biri sülh bağlanandan sonra müharibəni davam etdirməkdir. Bu barədə Həzrət Əli "Nəhcül-Bəlağə"də belə buyurmuşdur: "Özünlə düşmən arasında bir sülh müqaviləsi bağladıqda, yaxud ona aman paltarı geydirdikdə, əhdinə vəfa et, verdiyin amana riayət et".

İran islamşünas alimi M.Müstəva Müvavilari özünün "İslam və Qərb mədəniyyəti" əsərində göstərir ki, islam dini sülhsevərliyi insanların batinində bərqərar etmək istəyir. Əgər insanlar daxilən sülh tərəfdarı olmasalar, zahirdə elan olunan sülhün heç bir faydası olmaz. Bəşər öz mənəvi keyfiyyətlərinə görə yüksək səviyyəyə çatmazsa, sülh müqavilələri və əhdnamələrə əməl etmək iman və Allah qanunlarına əsasən olmazsa, həmin müqavilələr gec-tez pozulacaq və sülhsevərlik yalnız şüar olaraq qalacaq.

Əgər insanların daxilində vicdani hisslər baş qaldırsa, qəlblərinə mərhəmət nuru hopsa, onlar çəkişmələrin əsl səbəblərini anlayar və bu halda bütün ədalətsizliklər və keşməkeşlər tədricən zəifləyər və nəhayət, tamamilə aradan gedər. Onda həqiqi sülh bəşər cəmiyyətində bərqərar olar. Sülh mədəniyyətinə Şərqdə və Qərbdəki münasibəti müqayisə edən alim islamın sülhpərvərliyinin üstünlüyünü göstərir.

İndi də sülhün islam və "mədəni cəmiyyət"lər nəzərindən necə bir anlayış olduğunu araşdıraq. İslamın irəli sürdüyü sülh proqramı böyük dövlətlərin qəbul etdiyi sülhdən əsaslı şəkildə fərqlənir. Böyük dövlətlərin nəzərincə sülh kiçik dövlətlərin təbii sərvətlərini öz aralarında bölüşdürmək üçün yaradılan şərait deməkdir. Belə sülhlə onlar dünyanın bütün məntəqələrində öz nüfuzlarını daha rahat yaya bilirlər. Onların təşkil etdikləri sülh konfransları və məclisləri zahirdə bu ideyadan bol-bol danışmaq, əslində isə, öz məqsədlərini həyata keçirmək üçün əlverişli şərait yaratmaqdan ötrü olan başqa bir şey deyil. Amma islam dini dünyanın müxtəlif millətlərinin hüquq bərabərliyinə əsaslanan sülh istəyir. Heç bir ayrı-seçkilik olmadan, dövlətləri "böyük" və "kiçik"liyə bölmədən, zəiflər və qüdrətlilər üçün eyni olan, hər cür təcavüz və zoru rədd edən həqiqi sülhün bərqərar olunması islamın ən ali hədəflərindəndir.

BMT bütün dünyada sülh və əmin-amanlığın təmin olunması, ixtilafların aradan qaldırılması və müharibəyə yol verilməməsi üçün çoxlu səylər edir. Amma beynəlxalq aləmdə böyük dövlətlər münaqişələri "həll etmək" üçün heç BMT-yə məhəl qoymur və istədikləri kimi hərbi gücə əl atırlar. Hansı ölkəyə hərbi müdaxilə etmək istədikdə onları dünya ictimaiyyətinin nəzəri zərrə qədər də olsa, maraqlandırmır.

Sülh mədəniyyətini, sülh fəlsəfəsini müharibə, savaş fəlsəfəsinə qarşı qoyanlar arasında L.Tolstoyun, M.Qandinin, F.M.Dostoyevskinin və T.Toronun adlarını xüsusi qeyd etmək olar. M.Qandi qeyri-zoraki yolla Hindistanda milli-azadlıq hərəkatına başçılıq etmiş, hindlilər və müsəlmanlar arasında sülh yaratmağa nail olmuşdur. Sülh mədəniyyətinin inkişafına XX əsrdə Martin Lüter Kinq, A.Saxarov, A.Şveytser, V.Qabel də öz töhfələrini vermişlər. Çexlərin görkəmli ictimai xadimi V.Qabelin "hakimiyyətsiz hakimiyyət", ideyası bu sahədə xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan tədqiqatçısı Ə.Abbasov sülh mədəniyyətinin vətəndaş cəmiyyətinin inkişafında oynadığı rol haqqında yazır: "Demokratiyanın plürallığı şəraitində antimilitarist şüurun yaranması sülh mədəniyyətinin formalaşdırılması istiqamətində bütün siyasi sistemdə deyil, hələlik, yalnız vətəndaş cəmiyyətində olsa da "patriarxallıq fəlsəfəsinin" korroziyasının ilk əlamətidir. Deməli, vətəndaş cəmiyyətində sülh mədəniyyəti mentallığının inkişafı - formalaşmış ümumbəşəri dünyagörüşünün dəyişdirilməsi yoludur ki, bu da totalitarizmdən demokratiyaya keçməkdə olan ölkələr üçün xüsusilə vacibdir. Qədəm qoymuş XXI əsr bəşəriyyətin, münaqişələrin həllinin güc metodlarının virtuallaşdırılması yollarının mənimsənilməsi dövrünə çevrilməlidir ki, bu da qısa vaxt ərzində sülh mədəniyyətinin və "yeni şüur fəlsəfəsinin" inkişafını tələb edir. Müasir dünyada sülh mədəniyyəti haqqında təsəvvürlər hələ də qeyri-müəyyəndir. Özü də onun əhəmiyyəti və aktuallığının qiymətləndirilməsində fikirlərin kəskin qütbləşməsi mövcuddur. Bununla bağlı əsas məsələ münaqişə tərəflərinə sülh mədəniyyətinin pozitiv və praqmatik rolunu nümayiş etdirməkdən, onun üstünlüklərini əyani surətdə göstərməklə və ətrafında yaranmış stereotip və mifləri tədricən dağıtmaqdan ibarətdir".

Sülh mədəniyyəti məğlubiyyətçilik, milli maraqların nəzərə alınmaması deyil. Bu mədəniyyət milli maraqların müdafiəsi, tolerantlıq və kompromisin vəhdətindən ibarətdir. Azərbaycan MEA-nın müxbir üzvü S.Xəlilov özünün məşhur "Lider. Dövlət. Cəmiyyət" əsərində sülh mədəniyyətinin mahiyyəti, strukturu haqqında ətraflı bəhs etmişdir: "Nədir sülh mədəniyyəti? Sülhü passiv mövqe kimi, milli maraqlar uğrunda mübarizədən əl çəkilməsi, təslimçilik əhvalı kimi başa düşənlər səhv edirlər. Daha doğrusu, belələri "sülh mədəniyyəti"ndən uzaq olanlardır. Sülh mədəniyyəti sülhün mürəkkəb daxili quruluşunu, dinamikasını, dramatizmini dərk etmək, incə yollarla, qansızqadasız mübarizə üsullarına yiyələnməkdir. Coğrafi-iqtisadi siyasət də, coğrafi transsiyasət də, azad ticarət və iqtisadi məkan uğrunda mübarizə də "sülh mədəniyyəti"nin tərkib hissələridir".

S.Xəlilov sülh mədəniyyətinin mürəkkəb struktura malik bir fenomen olduğunu da göstərir: "Sülh vəziyyətinin dinamik strukturunun araşdırılması böyük dövlətlərin iqtisadi-siyasi və mədəni-mənəvi maraqlarının planetin geosiyasi xəritəsində bir fon kimi götürülməsini və münasibətdə olan dövlətlərin öz maraqlarının bu fonda, bu kontekstdə ikinci qat kimi yerləşdirilməsini nəzərdə tutur. Bu struktura, habelə, hər bir ölkənin milli-mənəvi dəyərləri, din faktoru da daxil edilməlidir. Nəticədə sülhün strukturuna iqtisadi, siyasi, mədəni, milli-mənəvi və dini faktorların daxil edilməsi lazım gəlir. Buraya beynəlxalq hüquqla, ümumbəşəri dəyərlərlə və böyük dövlətlərin maraqları ilə şərtlənən infrastruktur da əlavə edildikdə sülhün, əslində, necə mürəkkəb struktura malik olduğu ortaya çıxır".

Hüquqi-demokratik dövlət, vətəndaş cəmiyyəti quruculuğu yolu ilə gedən Azərbaycan sülh mədəniyyətinin bərqərar olduğu bir məkandır. Azərbaycanda sülh mədəniyyətinin formalaşmasında və inkişafında Ulu Öndər Heydər Əliyevin əvəzsiz xidməti olmuşdur. Ulu Öndər böyük Atatürk kimi cahanda sülh, ölkədə sülh prinsipinə sadiq dahi şəxsiyyət idi. Ulu Öndər deyirdi: "İyirminci yüzilliyin sonunda Avropa qarşısında həqiqi sülh və sabitlik yolu açılmışdır".

S.Xəlilov Ulu Öndərin sülh siyasətinin mahiyyəti haqqında belə deyir: "Bəli, Heydər Əliyevin siyasəti sülh siyasətidir. Lakin hər şey "sülh" anlayışını necə başa düşməkdən asılıdır. Sülh siyasəti heç də mübarizənin dayandırılması kimi başa düşülməməlidir, əksinə, qarşıdurmanın bəsit, primitiv həll üsulu olan və əslində, heç vaxt, heç bir məsələni tam həll edə bilməyən müharibə yolundan fərqli olaraq, sülh yolu çox çətin və mürəkkəb bir yoldur. Burada siyasi konsepsiyaların, ideologiyaların mübarizəsi gedir".

Ulu Öndər dünyada və ölkədə sülhün vəhdət təşkil etdiyini yaxşı anlayırdı: "Biz istəyirik həqiqətən Avropada təhlükəsizlik, sülh, əmin-amanlıq olsun, eyni zamanda, öz problemimizin həllini, yəni Qafqazda əmin-amanlıq, sülh olmasını istəyirik".

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

## Sevgilisindən "Hürrəm sultana" yeni təklif...



Məşhur aktrisa Məryəm Üzerliyə qızının atası Can Ateşdən gözlənilməz təklif gəlib. SİA-nın verdiyi məlumata görə, Ateş aktrisaya "İstanbulda birlikdə qalaq. Lara ailə ortamında böyüsün" -deyib. M.Üzerli isə seriala çəkiləcəyi üçün İstanbula gəlir. Qeyd edək ki, Can Ateş sevgilisi Meryem Üzerlinin hamilə olduğunu bilib aktrisadan ayrılmışdı.

## Uzun müddət oğurluqla məşğul olan şəxs tutulub

Azərbaycanda uzun müddət oğurluqla məşğul olan şəxs saxlanılıb. Bakı şəhər Baş Polis İdarəsindən SİA-ya bildiriblər ki, Səbail RPİ CAŞ, 8-ci PB və ÇPA əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində, oğurluqda şübhəli bilinən Bakı şəhər sakini, 1999-cu il təvəllüdlü Fuad Hüseynov yaxalanıb. Müəyyən edilib ki, o, 2013-cü il dekabrın 28-də Badamdar küçəsində yaşayan Soltan Qəribova məxsus "VAZ-2106" markalı avtomobildən akkumulyator, bu il aprelin 21-nə keçən gecə Qazolin küçəsində yerləşən Neft Qaz Texniki Xidmətlər Şirkətinin anbarından tikinti alətləri, avqustun 3-də Şıx çimərliyində Famil Məmmədovun, Sevindik Şirinovun pulunu, mobil telefonu, geyim əşyalarını, avqustun 9-da Salyan yolunda yaşayan Turqut Əhmədovun evindən mobil telefon, avqustun 13-də isə həmin ərazidə yerləşən kafedə Elvin Babayevin cibindən mobil telefonu oğurlayıb.

## ELAN

"AZSİĞORTA" ASC-yə məxsus bütün növ sığorta haqları üçün DFM/1 seriyalı 612519,721830,770634,772495,802507,867701,984103,984104,984105 saylı, DÇD seriyalı 863337 saylı, DFM/2 seriyalı 348012,348013,348014,279946 saylı mədaxil qəbzləri və " Daşınmaz əmlakın icbari sığortası" üzrə BA seriyalı 368889 saylı şəhadətnamə itdiyi üçün etibarsız sayılır.






## "Arsenal" İstanbuldan əliboş döndü..



UEFA Çempionlar Liqasında pley-off mərhələsinin oyunlarına start verilib. Qol.Az-ın məlumatına görə, ilk oyun günündə beş qarşılaşma baş tutub. Türkiyənin "Beşiktaş" klubu öz meydanında İngiltərə nəhəngi "Arsenal"ı qəbul edib. Bir çoxları bu qarşılaşmada "topçuları" favorit saysalar da, meydanda baş verənlər bunun tam əksini nümayiş etdirib. Belə ki, Slaven Biliçin yetirmələri "Olimpiya" stadionunda Arsen Vengerin futbolçularına göz açmağa imkan verməyiblər. Dem Ba və digər "Beşiktaş" futbolçuları hesabı açmağa bir neçə dəfə real imkan qazansalar da, bundan yararlana bilməyiblər. Beləliklə, İstanbulda keçirilən ilk qarşılaşma qolsuz bərabərliklə bitib. Cavab qarşılaşması Londonda keçiriləcək. "Qarabağ"ı mübarizədən kənarlaşdıran Avstriyanın "Zalsburq" klubu isə "Malmö"nü (İsveç) sınağa çəkib. Qarşılaşma Avstriya çempionunun 2:1 hesablı qələbəsi ilə başa çatıb.

## "Neftçi"ni yaxşı analiz etmişik"



"Üzərimizdə təzyiq yoxdur, hər şey qaydasındadır. Daha öncə məqsədimizin Avropa Liqasının qrup mərhələsinə düşmək olduğunu söyləmişdim. Futbolçular meydana çıxıb özləri və "Partizan" üçün oynamalıdırlar". Qol.Az-ın məlumatına görə, bu sözləri "Partizan" klubunun baş məşqçisi Marko Nikoliç Avropa Liqasının pley-off mərhələsində qarşılaşacaqları "Neftçi" ilə oyunöncəsi deyib. Serbiya mətbuatına danışan təcrübəli mütəxəssis "Neftçi"nin hörmətə layiq komanda olduğunu bildirib: "Neftçi" ilə bizi çətin oyun gözləyir. Uğurlu seriyanı davam etdirmək istəyirik. Təəssüf ki, Çempionlar Liqasında "Ludoqorets" səddini keçə bilmədik. Ancaq indi Avropa Liqasının qrup mərhələsində oynamaq şansımız var. Rəqib hörmətə və diqqətəlayiq komandadır. Onların heyətində səviyyəli legionerlər çıxış edir. Rəqibi yaxşı analiz etmişik. Artıq meydanda öz oyunumuzu nümayiş etdirməliyik. Fiziki cəhətdən "Neftçi"ni "Ludoqorets"ə bənzətmək olar. Texniki və sürət baxımından da komandalar arasında müəyyən oxşarlıqlar var. Ancaq oyun üslublarına görə hər iki komanda bir-birindən fərqlənir". Qeyd edək ki, bu gün Serbiyada keçiriləcək "Partizan" - "Neftçi" oyunu Bakı vaxtı ilə saat 23:15-də başlayacaq.

## FİFA "Barselona"ya transfer qadağası qoydu!

FİFA "Barselona" klubuna yenidən transfer qadağası qoyub. "Goal.com"-un verdiyi məlumata görə, Kataloniya təmsilçisi 2015-ci ilin yanvar ayından etibarən iki mövsüm boyunca heç bir transfer həyata keçirə bilməyəcək. Üstəlik "Barselona"ya 450 min isveçrə frankı, İspaniya Futbol Federasiyasına isə 500 min isveçrə frankı pul cəzası kəsilib. Xatırladaq ki, "Barselona" klubu 18 yaşdan aşağı bəzi futbolçuların transferində qayda pozuntusuna yol verdiyi üçün FİFA daha öncə komandaya iki transfer dönəmində oyunçu almağı qadağan etmişdi. İspaniya təmsilçisinin apelyasiya şikayətindən sonra dünyanın ali futbol qurumu bu cəzanı dondurmuşdu. Lakin dünən açıqlanan qərara əsasən, həmin cəza yenidən qüvvəyə minib.

## Venger "Beşiktaş"ı UEFA-ya şikayət etdi



"Arsenal"In baş məşqçisi Arsen Venger UEFA-ya şikayət edib. Buna səbəb , UEFA Çempionlar Liqasının pley-off mərhələsində "Arsenal" və "Beşiktaş" arasında İstanbulda keçirilən matçdan sonra azarkeşlərin Vengerə butulka atmaları olub. Təcrübəli mütəxəssis oyundan sonra verdiyi açıqlama bunları bildirib: "Mənə butulka və ya ona oxşar bir şey atdılar. Baş verənləri UEFA-ya bildirdim". Əgər baş məşqçinin dedikləri təsdiqlənərsə, "Beşiktaş" UEFA tərəfindən cəzalandırılacaq.

## "Real" "Atletiko" ilə bacarmadı



Futbol üzrə İspaniya superkubokunun ilk oyunu keçirilib. Qol.Az-ın məlumatına görə, fəxri mükafat uğrunda son Kral Kubokunun qalibi Madridin "Real" klubu ilə ölkə çempionu "Atletiko"(Madrid) üz-üzə gəliblər. Bir çoxları bu qarşılaşmada gənc uduz futbolçularla güclənən Madrid klubunu favorit göstərsələr də, "Atletiko" rəqibinə qarşı layiqli müqavimət göstərib. Görüş 1:1 hesablı bərabərliklə başa çatıb. Komandalar arasında cavab oyunu avqustun 23-də keçiriləcək. Xatırladaq ki, "Atletiko" tarixi ərzində yalnız bir dəfə - 1985-ci ildə İspaniya superkubokunu qazanıb. "Real" isə buna qədər 9 dəfə bu mükafata sahib olub.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız:Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi,32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500